# 525-ci qəzet

2 noyabr 2012-ci il, cümə, №199 (3755). Qiymәti 20 qәpik

www.525.az


# Çoxuşaqlı ailələrə güzəştlər və imtiyazlar verilə bilər

## TƏKLİFLƏR "ÇOXUŞAQLI AİLƏLƏRƏ DÖVLƏT DƏSTƏYİ HAQQINDA" QANUN LAYİHƏSİNDƏ ƏKSİNİ TAPIB

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi çoxuşaqlı ailələrə bir sıra güzəştlər və imtiyazların verilməsini təklif edir.

Komitənin Hüquq şöbəsinin müdiri Taliyə İbrahimova Trend-ə bildirib ki, bu təkliflər Komitənin hazırladığı "Çoxuşaqlı ailələrə dövlət dəstəyi haqqında" qanun layihəsində əksini tapıb.

Layihədə çoxuşaqlı ailələrə uşaqların təhsili, səhiyyə xidmətləri, mənzil məsələləri, çoxuşaqlı valideynlərin əmək hüquqları ilə bağlı təminat və güzəştlər nəzərdə tutulub.

Hazırlanmış təkliflərdə qeyd olunur ki, çoxuşaqlı ailələrin uşaqları dövlət ali və orta ixtisas məktəblərinin ödənişli fakültələrində güzəştli əsaslarla təhsil almaq imkanı qazanacaqlar.

Həmçinin uşaqların məktəbdənkənar təhsil müəssisələrində pulsuz əsaslarla əlavə təhsil alması, bütün təhsil dövründə dərs ləvazimatları, məktəbli və idman formaları ilə pulsuz təmin olunması, bu ailələrin uşaqlarına 6 yaşadək həkim resepti ilə alınan dərmanların pulsuz verilməsi, nəqliyyatdan istifadəyə görə kompensassiya verilməsi, istirahət, mədəniyyət obyektlərinə pulsuz göndəriş verilməsi təklif olunur.

Çoxuşalı ailələrə ssudaların, mənzil alınması üçün ipoteka kreditlərinin verilməsi, yaşayış sahələrinin həmin ailələrin mülkiyyətlərinə pulsuz verilməsi nəzərdə tutulur.

Layihədə belə ailələrə müavinətlərin verilməsi də təklif olunur.

T.İbrahimovanın sözlərinə görə, demoqrafiq proseslər və çoxuşaqlı ailələrin sosial vəziyyəti bu qanunun qəbulunu zəruri edir. Statistikaya nəzər salsaq, görərik ki, çoxuşaqlı ailələrin sayında azalma müşahidə olunur. 1999-cu illə 2009-cu il əhalinin siyahıya alınması ilə bağlı məlumatların müqayisəsinə görə, 1999-cu ildə biruşaqlı ailələrin göstəricisi 22,5, 2009-cu ildə 30,1 faiz, 4 və daha çox uşaqlı ailələrin statistikası 1999-cu ildə 16,7, 2009-cu ildə 9,7 faiz olub.



Komitə rəsmisi bildirib ki, qanun layihəsində çoxuşaqlı ailə dedikdə, övladlığa götürülən uşaqlar da daxil olmaqla, tərkibində 5 və daha çox 18 yaşına qədər, habelə 3 və daha çox əkiz uşaqları olan və onları 18 yaşınadək tərbiyə edən ailə nəzərdə tutulur.

"Əyani təhsil alan uşaqlar təhsilini bitirənə qədər, lakin 23 yaşıdan çox olmamaq şərti ilə, çağırış üzrə həqiqi hərbi xidmətdə olanlar xidmət müddəti bitənə qədər bu kateqoriyaya daxildirlər", — T.İbrahimova deyib.

Qanun layihəsində "Qəhrəman ana" adına da aydınlıq gətirilib.

Belə ki, 10 və daha çox uşağı, o cümlədən övladlığa götürülmüş uşaqları olan, onları 18 yaşınadək tərbiyə edən qadınlar "Qəhrəman ana" hesab olunacaqlar.

"Qəhrəman ana" adı veriləndə mütləq valideynin öz vəzifələrini layiqincə yerinə yetirməsi, uşağın tərbiyəsi və təhsili üçün əlverişli şərait yaratması, uşaqda yüksək əxlaqi-mənəvi keyfiyyətlərin formalaşdırılması və s. nəzərə alınmalıdır. Qəhrəman analar da yuxarıda qeyd olunan güzəşt və imtiyazlardan istifadə etmək imkanı qazanacaqlar. Layihədə qəhrəman analara birdəfəlik pul mükafatının verilməsi təklif olunur", — şöbə müdiri deyib.

Qeyd olunan imtiyaz və güzəştlərin valideyn hüququndan məhrum edilmiş valideynlərə və valideyn himayəsindən məhrum edilmiş uşaqlara, dövlət təminatında olan uşaqlara şamil olunmaması nəzərdə tutulur.

T.İbrahimova deyib ki, qanun layihəsi hazırlanarkən bir sıra Avropa və MDB dövlətlərinin bu sahədəki təcrübəsi öyrənilib.

Onun sözlərinə görə, Rusiya, Ukrayna, Fransa, İsveç, Finlandiya, Çexiya kimi ölkələrdə çoxuşaqlı ailələrə təminatlarla bağlı qanunlar qəbul olunub.

Belə ki, Fransada 1921-ci ildən "Böyük ailə" adlı dövlət proqramı həyata keçirilir. Proqrama əsasən çoxuşaqlı ailələrə subsidiya və imtiyazlar verilir. Fransada 4 və daha çox uşağı olan ailələr vergidən azaddır.

İsveçdə çoxuşaqlı ailələrə müavinətlər verilir və hər yeni doğulan uşağa görə verilən müavinətin məbləği artırılır. Həmçinin bu ailələrə yaşayış yeri üçün haqq verilir, məktəbəqədər müəssisələrin xərci dövlət tərəfindən ödənilir, ərzaq üçün talonlar verilir.

İbrahimova deyib ki, qanun layihəsi ilə bağlı müvafiq orqanların rəy və təklifləri alınandan sonra sənəd aidiyyəti orqanlara göndəriləcək.

# Prezident İlham Əliyev Antonius Broeki qəbul edib

Prezident İlham Əliyev noyabrın 1-də BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident əlaqələndiricisi Antonius Broeki qəbul edib.

APA-nın məlumatına görə, A.Broek etimadnamə məktubunu dövlət başçısına təqdim edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasında fəaliyyətinə toxunan A.Broek təmsil etdiyi təşkilatla ölkəmiz arasında mövcud olan uğurlu əməkdaşlığa görə dövlət başçısına minnətdarlığını ifadə edib.



Azərbaycanla BMT arasında fəal əməkdaşlığın uğurla davam etdiyini vurğulayan Prezident İ.Əliyev bu əlaqələrin ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasının üzv olduqdan sonra səmərəli şəkildə daha da genişləndiyini deyib, Azərbaycanın beynəlxalq təhlükəsizliyə və əməkdaşlığa öz töhfəsinin verdiyini qeyd edib.

# *Nizami Cəfərov:* "80 faizin soyad sonluğunun "ov", "yev" olması yaxşı hal deyil"

"Adlar və soyadların dəyişdirilməsi, milliləşdirilməsi, bu yöndə ayrıca qanunun qəbul olunması məsələsi cəmiyyətdə çox geniş müzakirə olunan və mürəkkəb bir məsələdir". Bunu professor, Milli Məclisin (MM) Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov dilə gətirib. "Sözün açığı hələlik Milli Məclisdə, daha doğrusu, komitəmizdə bu məsələ ilə bağlı heç bir layihə, sənəd də yoxdur" — deyən komitə sədrinin sözlərinə görə, bir xeyli müddət öncə Azərbaycan Milli Elmlər Akademiyasının adlar və soyadlar üzrə xüsusi komissiyası bu məsələ üzərində işləyib və müəyyən məsələləri təhlil edib: "Müəyyən məsələlər dedikdə də, üzdə olan statistika budur ki, bu gün Azərbaycanda "ov", "yev", "ova", "yeva" soyad sonluğu təxminən 80 faiz təşkil edir, "li", "lı", "lu", "lü" ilə olan soyadlarımız 10 faizə qədərdir, 10 faizə qədəri də "zadə" soyad sonluğudur. Bugünkü vəziyyət belədir, bu, akademik təhlildir.



Digər soyad formaları da var, amma onlar çox geniş yayılmayıblar . Zahirən şəkilçisiz forma — məsələn, Səməd Vurğun, Mikayıl Müşfiq, Əhməd Cavad və sair kimi isə heç bir faiz də təşkil etmir. Yəni, bunlar təxəllüs kimi qəbul olunub, amma rəsmi qeydiyyata alınmayıblar. Belə problemlərimiz də var".

Komitə sədrinəy görə, cəmiyyətdə uzun müddətdən bəri "ov", "yev" soyad sonluğunun hələ də 80 faiz təşkil etməsi düzgün hal deyil: "Bu məsələ qanunla da tənzimlənə bilər, Nazirlər Kabinetinin sərəncamı ilə də bu məsələ həll oluna bilər, xüsusilə, Ailə Məcəlləsinə dəyişikliklər yolu ilə də həll oluna bilər. Amma burada əsas məsələ ictimai müzakirələrdir. Çünki Azərbaycanda bu yöndə qəbul olunan qərarlar, qanunlar bütün dünya azərbaycanlılarına aid olmalıdır. Əgər biz xalqımızın eyni bir soyad forması və ya bir neçə soyad forması ilə tanınmasını istəyiriksə, bu yalnız Azərbaycan Respublikası ilə məhdudlaşa bilməz".

N.Cəfərovun eyni zamanda dediyinə görə, burada müəyyən prosedurlar sadələşdirilməli və bu məsələ ilk növbədə yeni doğulan uşaqlara aid olunmalıdır: "Amma bir daha qeyd edirəm, hamımız çox yaxşı başa düşürük ki, 80 faiz "ov", "yev" özünü doğruldan bir şey deyil. Nəzərə alsaq ki, bunların da mütləq əksəriyyəti mexaniki şəkildə bu soyad formasına keçib, o zaman bu məsələ özünü doğrulda bilməz".

**Kamil HƏMZƏOĞLU**

# Akademik Budaq Budaqov vəfat edib

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA Coğrafiya İnstitutunun direktoru Budaq Budaqov vəvat edib. Bu barədə APA-ya Coğrafiya İnstitutundan bildirilib. Məlumata görə, akademik bu gün günorta saatlarında dünyasını dəyişib.



B. Budaqov 1928-ci il fevralın 28-də Qərbi Azərbaycanın Zəngibasar bölgəsinin Çobankərə kəndində anadan olub. İrəvanda Azərbaycan Dövlət Pedaqoji məktəbində təhsilini davam etdirib (1943-1947).

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olub. Moskvada SSRİ EA Coğrafiya İnstitutunda aspiranturanı bitirdikdən sonra (1951-1955) "Cənubi-Şərqi Qafqazın şimal yamacının geomorfologiyası" adlı namizədlik (1955) və "Azərbaycanın Böyük Qafqaz hissəsinin geomorfologiyası və yeni tektonikası" adlı doktorluq (1967) dissertasiyalarını müdafiə edib.

Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda kiçik elmi işçi (1955-1958), böyük elmi işçi (1958-ci ildən) işləyib. Azərbaycan EA müxbir üzvü (1976) və akademik (1989) seçilmişdir. Ədəbi, elmi yaradıcılığa tələbəlik illərindən başlayıb. Onun elmi əsərləri Azərbaycanda, həmçinin xaricdə — Rusiya, Hindistan, Polşa, Türkiyə və İran elmi və dövri mətbuatlarında çap olunub. "Cənubi-Şərqi Qafqazın geomorfologiyası və yeni tektonikası" (1973) elmi əsəri keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin N.Prjevalski adına qızıl medalına layiq görülüb. Onun yaradıcılığında elmi-kütləvi, elmi-publisistik məzmunlu məqalələr geniş yer tutur. Onun "Ən yüksək zirvələrdə", "Canlı adalar", "Qərq olmuş dağlar", "İki mərtəbəli çay", "Üzən su anbarları", "Coğrafı adlar tarixi abidədir", "Toxunulmaz müqəddəslər" və s. bu səpkidə yazdığı 180-dən artıq elmi-kütləvi və publisistik məqaləri "Elm və həyat", "Azərbaycan təbiəti", "Azərbaycan məktəbi", "Ulduz" jurnallarında, "Sovet Ermənistanı", "Vətən səsi", "Ədəbiyyat və incəsənət" və s. qəzetlərdə dərc edilib.

B.Budaqov coğrafi təkanın, sel ocaqlarının təsnifatını verib, təbiətin dağıdıcı hadisələrini sistemləşdirib, Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfologiyasını, yeni tektonik hərəkətlərini, qədim buzlaşmasını öyrənib, ərazinin xəritələrini (1:200000) tərtib edib. İlk dəfə (1956) Qafqazda 3600 m mütləq yüksəklikdə Üst Sarmaq yaşlı dəniz faunasını aşkara çıxarıb. Azərbaycanın təbii və antropogen landşaftını, orada baş verən səhralaşmanı, landşafın geokimyasını öyrənib. İlk dəfə Azərbaycanda təbii-dağıdıcı hadisələrin intensivliyinə görə ekoloji-coğrafi şəraiti tədqiq edib. Aerokosmik üsullarla Böyük və Kiçik Qafqazın şərq hissəsinin morfostruktur quruluşunun qanunauyğunluqları və landşafın differensiasiyası müəyyənləşdirib. İlk dəfə Şərqi Avropada və Asiyada türk mənşəli, Ermənistan və Gürcüstanda isə Azərbaycan mənşəli toponimləri öyrənib.

# Meteoroloqlar meteohəssas insanlara xəbərdarlıq edib

Bakı və Abşeron yarımadasında noyabrın 2-də buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, arabir yağış yağacağı gözlənilir.

Şimal küləyi əsəcək, gündüz arabir güclənəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 12-16, günün birinci yarısında 20 dərəcəyədək yüksələcəyi, günün ikinci yarısında isə 14-16 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında noyabrın 2-də bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 10-15, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza əsasən, noyabrın 2-də Bakı və Abşeron yarımadasında gün ərzində hava şəraitinin təzadlı dəyişməsi bəzi meteohəssas insanlarda diskomfort hissi yaratsa da, noyabrın 3-ü gün ərzində və 4-də gözlənilən hava şəraiti meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Ermənilər Azərbaycanın mövqelərini atəşə tutublar

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan kəndində, Ağdam rayonunun işğal olunmuş Şıxlar və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

# *Möhsün Pak Ayin:* "İran-Ermənistan münasibətləri Azərbaycanın əleyhinə deyil"

İran İslam Respublikası ilə la Azərbaycan arasında münasibətlər yaxşı səviyyədədir və inkişaf etməkdədir. Bu barədə müsahibəsində İranın Azərbaycandakı yeni səfiri Möhsün Pak Ayin deyib. Səfir xatırladıb ki, bir müddət əvvəl Azərbaycanın XİN rəhbərinin İrana səfəri və Qoşulmayanlar hərəkatının sammitində iştirakı, ardınca İran prezidentinin Azərbaycana səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatının Bakı görüşü çərçivəsində keçirilən görüşlər iki ölkənin münasibətlərinin göstəricisidir. "Bunların hamısı göstərir ki, iki ölkə rəhbərlərinin iradəsi əməkdaşlığımızın inkişafına yönəlib. Ona görə də mən münasibətlərimizin gələcəyini çox parlaq görürəm. Təbii ki, hər iki qonşu ölkə arasında hərdən hansısa məsələlər ortaya çıxa bilər. Amma nəzərə alaq ki, həmişə müzakirələr üçün maraq var və belə məsələlər həmişə həll olunur".

Ermənistan İran münasibətlərinin Azərbaycanda narazılıq doğurmasına gəlincə, səfir deyib ki, əsas hədəfləri regionda sabitliyin hökm sürməsidir. "Biz onun tərəfdarıyıq ki, heç bir müharibə olmasın. Ermənistanla İran münasibətlərinin potensialından istifadə edərək bəzi xoşagəlməz hadisələrin qarşısını ala bilərik. Ona görə ki, hər iki ölkə, yəni həm Azərbaycan, həm İranla münasibətimiz olanda lazım gələn vaxtda vasitəçiliklə münaqişənin həllinə kömək edə bilərik. İranın Ermənistanla olan münasibətləri heç vəchlə Azərbaycanın əleyhinə deyil və Azərbaycanı təhdid etmir".

Möhsün Pak Ayin xatırladıb ki, İran Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir bu əqidədədir ki, Azərbaycandan ayrılan torpaqlar geri qayıtmalıdır. "Bu bizim rəsmi mövqeyimizdir və bütün beynəlxalq təşkilatlarda da bu mövqeyimizi bildirmişik. Həmçinin münaqişənin sülh yolu ilə tezliklə həllini istəyirik. Bilirsiniz ki, Qarabağ münaqişəsinin həlli İranın əlində deyil. Bununla ATƏT-in Minsk qrupu məşğul olur. Həqiqət bundan ibarətdir ki, Azərbaycan Minsk qrupu dövlətlərindən daha çox fəallıq gözləməlidir. Biz və regionun digər ölkələri isə çalışmalıdır ki, münaqişənin həllinə yardım etsin".

Diplomat onu da vurğulayıb ki, Azərbaycanın İrana qarşı öz ərazisindən istifadəyə imkan verməyəcəyi ilə bağlı mövqeyinə rəsmi Tehran tam güvənir. "Biz tamamilə Azərbaycanın bu mövqeyinə inanırıq. Azərbaycan bu mövqeyində tam sədaqətlidir. Ona görə də bu məsələdə nigarançılığımız yoxdur".

**PƏRVANƏ**

# ABŞ-da qasırğa nəticəsində həlak olanların sayı 72-yə çatıb

ABŞ-da "Sendi" qasırğası nəticəsində həlak olanların sayı 72-yə çatıb.

APA-nın "RİA Novosti"yə istinadən xəbərinə görə, qasırğadan daha çox Nyu-Cersi və Nyu-York ştatları zərər çəkib. Kolumbiya dairəsində dağıntılar olmasa da, qasırğa elektrik xətlərini qırıb və nəticədə Vaşinqtonda, Merilend və Virciniya ştatlarında 400 min nəfər iki gün işıqsız qalıb. Ümumilikdə isə ABŞ-ın şərq sahillərində işıqsız qalanların sayı 8 mın. Nəfərə çatıb.

Hazırda ABŞ paytaxtında bütün istehlakçıların elektrik enerjisi ilə təchizatı bərpa olunub, amma Vaşinqtona yaxın olan ən böyük yaşayış məntəqəsində — Baltimorda (Merilend ştatı) 25 min nəfər hələ də işıqsızdır.

"IHS Global Insight" şirkətinin məlumatına görə, qasırğanın vurduğu maddi zərərin həcmi 20 mlrd. dollara çata bilər. İqtisadi fəallığın aşağı düşməsi nəticəsində təkcə Nyu-York şəhəri hər gün 200 mln. dollar itirir.

# Səməd Seyidov Oslo Universitetinin nümayəndələrilə görüşüb

Dünən Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, professor Səməd Seyidov “Azərbaycan ilə İtaliya arasında təhsil sahəsində əməkdaşlıq: mövcud vəziyyət və perspektivlər” mövzusunda ikigünlük konfransda iştirak etmək üçün Azərbaycana səfər etmiş Oslo Universitetinin nümayəndə heyətini qəbul edib.



Görüş zamanı S. Seyidov ADU ilə İtaliya arasında əlaqələrin vacibliyindən söz açıb. ADU-da İtaliya mərkəzinin fəaliyyət göstərdiyini, təhsil alan tələbələrin sayını qonaqların nəzərinə çatdırıb. Universitetlərarası əlaqələrin inkişaf etdiyini vurğulayan rektor bu gün tələbələrin nəinki bu dili öyrəndiklərini, hətta tərcümə sahələrində çalışdıqlarını da qeyd edib.

S. Seyidov bu yeni əməkdaşlığın Oslo Universiteti ilə çox yüksək səviyyədə inkişaf etmiş əlaqələrin davamı olduğunu söyləyib. Əlaqələrin bir neçə tələbənin bakalavr səviyyəsində təhsil alması ilə başladığını deyən rektor magistratura səviyyəsi üçün mütəxəssislərin hazırlığına da diqqət çəkərək tələbələrin Oslo Universitetlərində təhsillərini davam etdirə bilmək imkanı qazandıqlarını vurğulayıb. Həmçinin o, tələbələrin Norveç mədəniyyəti və dilini öyrənməyə böyük maraq göstərdiklərini qeyd edib. Bu əlaqələrin davamlı olacağını, tələbə-müəllim mübadiləsinin uğurla aparıldığını bildirib.

S. Seyidov layihənin təkcə ADU-ya deyil, həm də Azərbaycan-Norveç əlaqələrinə töhfə verəcəyini deyib. Bu layihənin birgə zəhmətin nəticəsi olduğunu vurğulayaraq rektor ADU tələbələrinin Norveç dilində sərbəst danışdıqlarından söz açaraq bir neçə ildən sonra ADU-nun əməkdaşları içərisində Oslo Universitetindən gəlib burada Norveç dilini tədris edən müəllimlərin olacağından əmin olduğunu deyib. Daha sonra layihənin və Oslo Universitetinin nümayəndə heyətinin rəhbəri Vibeka Roggen layihə haqqında fikirlərini bildirib. Bir çox nailiyyətlərin əldə olunmasına diqqət çəkərək müəllimlərin, Oslo Universitetinin əməkdaşlarının ADU-da çalışdıqlarını söyləyib. Görüşdə gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi imkanları, yeni layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Qeyd edək ki, görüşdə Oslo Universitetinin siyasi elmlər şöbəsinin müdiri, professor Dag Harald Klas, Norveç dilinin ADU-da və xarici tələbələrə tədrisi üzrə məsul şəxs, mühazirəçi Roger Solberg, Pilot proqramın rəhbəri və layihə məsləhətçisi Krister D. Daatland, Norveç dilinin tədrisi üzrə mühazirəçi və layihə koordinatoru Anja Zviki və Skandinaviya Kitabxanasında məsul şəxs, Norveç dili müəllimi Erin Bugge iştirak edirdi.

**S.QARAYEVA**

# Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubileyi qeyd ediləcək

Bu ay Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubileyi təntənəli şəkildə qeyd olunacaq. Gənclər və İdman Nazirliyindən APA-ya verilən məlumata görə, yubiley tədbirlərində təkcə idman ictimaiyyəti deyil, paytaxt əhalisi də yaxından iştirak edəcək.

Noyabrın 4-də saat 13.00-dan başlayaraq, Dənizkənarı Milli Parkda səhərdən axşamadək müxtəlif tədbirlər həyata keçiriləcək. İdman həvəskarları və şəhər sakinləri Azərbaycan Olimpiya Hərəkatının uğurlarını əks etdirən fotostendlərlə tanış olacaqlar. Bundan başqa idmansevərlər ayrı-ayrı idman növləri üzrə olimpiya çempionları və mükafatçılarımızla şəkil çəkdirmək və onlardan avtoqraf almaq imkanı qazanacaqlar. Hər kəs peşəkar fotoqraf tərəfindən çəkilən fotoşəkillər www.idman.com.az saytında yerləşdiriləcək və hamı öz şəklini həmin saytdan pulsuz götürə biləcək.

Bundan başqa, mərasim iştirakçıları boks, cüdo, taekvondo, qol güləşi, gimnastika, kapoeyra, zorxana və güləş idman növlərində peşəkar idmançıların nümunəvi çıxışlarını izləyəcək və arzu edənlər həmin idman növlərində öz qüvvə və bacarıqlarını məşqçilərin müşayiəti ilə yoxlaya biləcəklər.

Tədbirdə Milli Olimpiya Komitəsinin 20 illiyinə həsr olunmuş yürüş də təşkil ediləcək. Yürüşün qaliblərinə qiymətli hədiyyələr təqdim ediləcək.

Saat 18.30-da başlanacaq möhtəşəm konsert proqramı ilə tədbirlərə yekun vurulacaq.

# Bakıda Gənclər Festivalı olacaq

Gənclər və İdman Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, festivala fotosərgi, debatlar turniri, velosiped yürüşü və ekoparti daxildir. Fotosərgidə “Planetdə sənin qoyduğun iz” adı altında respublikanın rayon və şəhərlərində insan fəaliyyətinin ekologiyaya təsiri fotolarda təsvir olunacaq. Belə ki, fotosərgi sabah Bakı İdman Sarayında xüsusi hazırlanmış çadırlarda təşkil ediləcək.

Qeyd edək ki, “Yer kürəsi bizim üçün, biz Yer kürəsi üçün” adı altında debatlar hazırlıq mərhələsində Bakının 16 məktəbində yuxarı sinif şagirdləri arasında keçirilib. Bu gün isə “Park İnn” otelində Debat turnirinin final mərhələsinin və qaliblərin mükafatlandırma mərasiminin keçirilməsi nəzərdə tutulub.

Nazirliyin məlumatında bildirilib ki, sabah Gənclər və İdman Nazirliyinin qarşısından Bakı İdman Sarayınadək 30 velosipedçinin iştirakı ilə “Sağlamlıq naminə” adlı velosiped yürüşü keçiriləcək. Belə ki, yürüşün iştirakçıları insanları ekoloji sağlam nəqliyyatdan daha geniş istifadə etməyə çağıracaqlar. Festivalın yekunu olaraq isə sabah Bakı İdman Sarayında ekoparti keçirilməsi planlaşdırılır. Ekopartidə iştirakçıların bir hissəsi flora və faunanı əks etdirən maskalarda, digər iştirakçıların sifətləri “face art”çılar tərəfindən müxtəlif obrazlarla rənglənəcək.

**S.QARAYEVA**

# AGTA Beynəlxalq Tərcüməçilər Federasiyasına üzv oldu

Azərbaycan Gənc Tərcüməçilər Assosiasiyası (AGTA) Beynəlxalq Tərcüməçilər Federasiyasına (BTF) müşahidəçi üzv qəbul olunub. Bu barədə “525”ə AGTA-dan məlumat verilib. Məlumata görə, oktyabrın 30-da Federasiyanın Şurası yekdilliklə AGTA-nın bu təşkilata üzv qəbul edilməsinə səs verib. Nəticədə, AGTA 3 il müddətinə bu təşkilata müşahidəçi üzv qəbul edilib.

AGTA-nın sədri İsmayıl Cəbrayılov bildirib ki, BTF-ə müşahidəçi üzvlük üçün bir neçə ay bundan əvvəl müraciət edilib. O, bununla böyük təcrübə qazanacaqlarını deyib: “Yeni yaranmış təşkilat kimi, Beynəlxalq Tərcüməçilər Federasiyasına müşahidəçi üzvlük üçün müraciət etdik. Müşahidəçi üzvlüyün müddəti 3 ildir. Bu müddət ərzində Beynəlxalq Tərcüməçilər Federasiyası və onun üzvləri təşkilatımızın strukturunun formalaşmasında köməklik göstərəcək, təcrübələrini bizimlə bölüşəcəklər. Təşkilatın peşəkar assosiasiya kimi formalaşması başa çatdıqdan sonra daimi üzvlük müraciət edəcəyik ki, məncə bu çox çəkməyəcək və 3 il gözləməyimizə ehtiyac qalmayacaq”.

Beynəlxalq Tərcüməçilər Federasiyası bu gün 55 ölkədən yüzdən çox peşəkar assosiasiyanı özündə birləşdirməklə, 80 mindən yuxarı tərcüməçini təmsil edir. AGTA-nın BTF-ə qəbul olunması ilə Azərbaycan ilk dəfə bu təşkilatda təmsil olunmağa başlayıb.

Təşkilat BTF-ə yeni üzv qəbul olunsa da, artıq xeyli müddətdir əməkdaşlıq etməkdədir. Beynəlxalq tərcüməçilər şəbəkəsinin bir hissəsi kimi AGTA Azərbaycanda ilk dəfə Beynəlxalq Tərcümə Gününün yüksək səviyyədə qeyd edilməsinə nail olub. Belə ki, təşkilatın 1 yaşı və Beynəlxalq Tərcümə Günü münasibətilə 28 sentyabrda AGTA “Tərcümə — mədəniyyətlərarası kommunikasiya vasitəsi kimi” mövzusunda konfrans keçirib. Qeyd edək ki, Beynəllxalq Tərcümə Günü BTF-in rəhbərliyi altında bütün dünyada “Tərcümə — mədəniyyətlərarası kommunikasiya” şüarı altında qeyd edilib.

İki yüzə yaxın peşəkar, həmçinin həvəskar tərcüməçiləri, tərcümə təhsili almaqda olan tələbələri bir araya gətirən AGTA 2011-ci il sentyabrın 30-da — Beynəlxalq Tərcüməçilər Günündə — bir qrup gənc tərcüməçi tərəfindən təsis edilib. Təşkilatın yaradılmasında məqsəd ölkədə fəaliyyət göstərən tərcüməçilər arasında kommunikasiya qurmaq, tərcümə sənəti haqqında düzgün ictimai rəy yaratmaq, gənc tərcüməçilərə dəstək olmaq, eləcə də mədəniyyətlərarası kommunikasiyanın imkanlarından istifadə etməklə ölkənin müxtəlif sahələrdə inkişafına töhfə verməkdir.

**AQİL**

# Hökumət hesabatların elektron formada təqdim edilməsi üçün sistem hazırlayıb

Azərbaycan Nazirlər Kabinetinin Aparatı hesabatların elektron formada təqdim edilməsi üçün sistem hazırlayıb. Nazirlər Kabinetindən “APA-ECONOMICS”ə verilən məlumata görə, sözügedən sistem Azərbaycanda dövlət zəmanəti ilə alınan kreditlər, həmçinin texniki yardım və qrantlar hesabına maliyyələşdirilən layihələrin idarə edilməsinin avtomatlaşdırılması sahəsində imkanların artırılmasına xidmət edir. Layihənin məqsədi Nazirlər Kabineti Aparatının beynəlxalq kredit və yardımlar üzrə şöbəsində dövlət zəmanəti ilə alınan kredit, texniki yardım və qrantların monitorinqi və əlaqələndirilməsindən ibarətdir.

Sözügedən sistem vasitəsilə layihələrin rüblük, aylıq və operativ hesabatları elektron formada alınaraq onların arxivləşməsi həyata keçirilir ki, bunun da üstünlüyü istənilən vaxt istənilən (cari və ya başa çatmış) layihə haqqında məlumat əldə edərək, layihələrin icrası ilə bağlı işlərin operativ olaraq təhlil edilməsi və bununla da işin keyfiyyətinin yaxşılaşdırılmasının təmin edilməsidir. Ən əsası isə sistem daxil edilən məlumatlara əsasən avtomatik olaraq müvafiq statistik göstəriciləri formalaşdırır.

Sistemdən yalnız Nazirlər Kabinetinin Aparatı, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və aidiyyəti dövlət orqanlarında yaradılmış dövlət zəmanəti ilə alınan kreditlər, həmçinin texniki yardım və qrantlar hesabına həyata keçirilən layihələri icra edən Layihə İdarəetmə Qruplarının istifadə etməsi mümkündür.

Layihə çərçivəsində sistemin işləməsi üçün məlumat bazası və proqram təminatı yaradılıb və sistemin təhlükəsizliyi təmin edilib. Belə ki, sistemə daxil olmaq üçün xüsusi login və şifrə tələb olunur, bu da yalnız müəyyən edilmiş müvafiq istifadəçilər tərəfindən daxil edilə bilər. Gələcəkdə sistemdə əməliyyatlar zamanı elektron imzalardan da istifadə olunması nəzərdə tutulub.

# Ağcabədidə "Azərbaycan gənclərinə dəstək proqramı" layihəsi çərçivəsində növbəti konfrans olub

Ağcabədidə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) UNICEF-in dəstəyi ilə 2011-ci ilin oktyabrından icra etdiyi “Azərbaycan gənclərinə dəstək proqramı” layihəsi çərçivəsində ikinci konfrans keçirilib. BMT-nin Azərbaycan nümayəndəliyindən verilən məlumata görə, konfransda UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard, Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun nümayəndələri, Ağcabədi, Ağdam və Beyləqan rayon icra hakimiyyətlərinin rəhbər işçiləri, gənclər və idman idarələrinin rəisləri, Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı şöbələrinin müdirləri, həkim-narkoloqlar, polis şöbələrinin əməkdaşları, təhsil şöbələrinin müdirləri, dini icmaların rəhbərləri, layihədə könüllü çalışan təbliğat qruplarının üzvləri iştirak ediblər.

Qarabağ Muğam Mərkəzində keçirilən konfransda BAMF-ın sədri Umud Rəhimoğlu və fondun beynəlxalq əlaqələr və proqramlar departamentinin rəhbəri Nik Nvolisa çıxış edərək layihə haqqında məlumat veriblər: “Layihənin əsas məqsədi gəncləri idarəçiliyə daha yaxından cəlb etmək istiqamətində təlimləndirmək, onları ətraflarında baş verən hadisələrə daha fəal diqqət yetirməyə həvəsləndirmək və müsbət dəyişiklikləri müdafiə etməkdən ibarətdir”.




UNİCEF-in ölkə direktoru Mark Herevard rəhbərlik etdiyi qurumun missiyasından danışaraq layihənin əhəmiyyətini yüksək qiymətləndirib. Gənclər Fondunun rəsmisi Vaqif Seyidbəyov çıxış edərək Azərbaycan dövlətinin gənclərlə bağlı siyasətindən, Gənclər Fondunun fəaliyyətindən danışıb. Konfransda Ağdam, Ağcabədi və Beyləqan rayonlarının təbliğat qrupları fəaliyyətlərinin məqsədi, layihə çərçivəsində görülən işlər barədə təqdimatla çıxış edərək bugünkü gəncliyi narahat edən məsələlər, qarşılaşdıqları problemlər və onların aradan qaldırılması yolları barədə təkliflər irəli sürüb, müvafiq qurumların rəsmilərinə suallar ünvanlayıb. Xatırladaq ki, layihə çərçivəsində birinci konfrans iyunun 7-də Tərtər şəhərində keçirilib.

**S.MÜRVƏTQIZI**

# Qida məhsullarının yoxlanması ilin sonunadək davam edəcək

Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi (RGEM) tərəfindən cari ilin sonuna kimi hansı məhsullar üzərində yoxlamaların aparılacağı məlum olub. RGEM-in qidalanma gigiyenası bölməsinin müdiri İmran Abdullayev APA-ya açıqlamasında deyib ki, noyabr-dekabr aylarında yoxlanılacaq məhsullara müxtəlif növ uşaq qidaları, zeytun şorabaları, mayonezlər, meyvə-tərəvəz, ət və ət-konservləri, kartof çipsiləri, çay-qəhvə və digər məhsulları daxildir.

İ.Abdullayev əlavə edib ki, artıq kremli-qənnadı məhsullar üzərində aparılan yoxlamalar başa çatıb. Onun sözlərinə görə, planda 100 nümunə nəzərdə tutulsa da, 102 nümunənin yoxlanması həyata keçirilib. Şöbə müdiri vurğulayıb ki, onlardan 6 nümunə qeyri-kafi qiymətləndirilib və təkrar müayinəyə göndərilib: “Hisə verilmiş balıqlarla bağlı araşdırmalar isə artıq başa çatmaq üzrədir. Onların cavabları yaxın zamanlarda açıqlanacaq”.

# Parlament jurnalistləri Türkiyəyə gedir

Parlament Jurnalistləri Birliyinin bir qrup üzvü Türkiyəyə səfərə gedir. Bu barədə PJB-nin sədri Elşad Eyvazlı 525-ə açıqlamasında bildirib. Azərbaycandan səfərdə “Mediaforum” portalının əməkdaşı İmdad Əlizadə, “525-ci qəzet”- və “Gün.az” portalının əməkdaşı Kamil Həmzəoğlu, “3 nöqtə” qəzeti və publika.az portalının əməkdaşı Elməddin Muradlı iştirak edəcək. Səfər Alaniya Qəzetəçilər Cəmiyyətinin dəvəti ilə baş tutub. PJB üzvləri Türkiyə Qəzetəçilər Federasiyasının toplantısında iştirak edəcək. Səfər 2-7 noyabr tarixindək davam edəcək.

**BƏXTİYAR**

# "Yeni Media Jurnalistləri" Türkiyənin internet qəzetləri ilə əməkdaşlıq edəcək

“Yeni Media Jurnalistləri” İctimai Birliyi qardaş Türkiyədə internet jurnalistikanın vəziyyətini, əməkdaşlıq imkanlarını öyrənmək və təcrübə mübadiləsini aparmaq məqsədi ilə bu ölkənin yeni media qurumları ilə əməkdaşlıq edəcək. Bu barədə YMJ-in sədri Xaqani Səfəroğlu məlumat verib. Qarşılıqlı əlaqələrin yaradılması üçün qurumun İdarə Heyətinin üzvü, jurnalist İmdad Əlizadə sabah Türkiyəyə yola düşür. Türkiyə Qəzetəçilər Federasiyasının toplantısına qatılacaq YMJ nümayəndəsinin Türkiyənin aparıcı portal və internet xəbər agentliklərinin rəhbərləri ilə görüşü planlaşdırılır.

**BƏXTİYAR**

# Dayə, sürücü, bağban və mühafizəçilərlə də əmək müqavilələri bağlanacaq

Azərbaycanda qeyri-leqal məşğulluqla mübarizə çərçivəsində mövcud qanunvericiliyə bəzi dəyişikliklər edilə bilər. “APA-ECONOMICS”in məlumatına görə, vergilər nazirinin müşaviri İlqar Əhmədov bildirib ki, fərdi əmək fəaliyyəti ilə məşğul olan və müxtəlif xidmətlər göstərən vətəndaşlarla da əmək müqaviləsi bağlanmalıdır: “Bu cür xidmətlər göstərən dayələr, fərdi sürücülər, bağbanlar, mühafizəçilər və s. kimi qrupa daxil olan işçilərlə əmək müqaviləsi bağlanması üçün qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir”.

Onun sözlərinə görə, statistik məlumatlara görə, ölkədə məşğul əhalinin sayı 4,375 mln. nəfər olsa da, onların yalnız 1,381 mln. nəfəri muzdla işləyənlərdir: “Yəni, təxminən bu qədər vətəndaşın işəgötürənlə əmək müqaviləsi var. Bu kateqoriyanı da nəzərə alsaq, qarşımızda faktiki əmək fəaliyyəti olan, iş yerlərində çalışan, lakin əmək münasibətlərini rəsmiləşdirməmiş kifayət qədər çoxsaylı bir işçi qüvvəsi dayanır”.

Müşavir bildirib ki, indiyədək aparılan işlərin nəticəsi olaraq, bu günə kimi vergi orqanları tərəfindən təxminən 50 min vergi ödəyicisində 165 mindən yuxarı işçi ilə əmək müqaviləsinin bağlanması təmin edilib. Bağlanmış əmək müqavilələrinin 71,3 mini və ya 43,1%-i regionların payına düşür. Bu barədə məlumatlar Dövlət Sosial Müdafiə Fonduna və onun yerli strukturlarına da göndərilib ki, bu da həmin iş yerlərinin və gələcəkdə baş verə biləcək dəyişikliklərin həm vergi orqanları, həm də Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzarətə götürülməsinə imkan verir.

# “Solmaz” Şadlıq Sarayı və “Maybach” mağazasının əmlakı siyahıya alınıb

Vergilər Nazirliyinin Bakı şəhəri Vergilər Departamenti Vergi borclarının alınması İdarəsinin əməkdaşları Yasamal rayonu, H.Zərdabi prospekti, ev 55, mənzil 99 ünvanında yerləşən, fiziki şəxs Müşfiq Muxtar oğlu Əhmədova məxsus, avtomobil hissələrinin satışı ilə məşğul olan “Maybach” mağazasında əmlakı siyahıya alıblar.

Vergilər Nazirliyindən “APA-ECONOMICS”ə verilən məlumata görə, M.Əhmədovun fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən yoxlanılarkən, onun 2011-ci ilin oktyabr ayında 4 136 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilib. Vergi ödəyicisinə iyul ayında borc bildirişi göndərilib, sentyabrın 5-də isə vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi M.Əhmədova məxsus əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb. Vergi əməkdaşları onun icarəyə götürdüyü “Maybach” mağazasındakı 4 375 manat məbləğində müxtəlif növ maşın hissələrini qanuna müvafiq qaydada siyahıya alıblar.

Həmin gün vergi xidməti əməkdaşları Nərimanov rayonu, Atatürk prospekti, ev 41, mənzil 47 ünvanında yerləşən, fiziki şəxs Şəfiqə Əliheydər qızı Məmmədovaya məxsus “Solmaz” Şadlıq Sarayının da əmlakı siyahıya alıblar. Ş.Məmmədovanın fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən araşdırılarkən, onun 2010-cu ilin may ayından sonrakı dövrdə 12 785 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilərək, oktyabrın 16-da borclu şəxsə məxsus əmlakın siyahıya alınması haqqında qərar çıxarılıb, şadlıq sarayının 25 min manat dəyərində olan binası siyahıya alınıb.

# "Twitter" Azercell-in səhifəsini rəsmi olaraq təsdiq etdi

## ŞİRKƏT SMS-TWİTTER XİDMƏTİNİ DƏ İSTİFADƏYƏ VERDİ

Azercell şirkətinin rəsmi Twitter səhifəsi www.twitter.com/azercell təsdiqlənmiş (verified) statusuna layiq görülüb. Bu status Twitter şirkətinin özü tərəfindən tanınmış qurumlara, brendlərə və ictimai xadimlərə verilir. Bununla, Azercell nəinki telekommunikasiya sektorunda, hətta Azərbaycanın bütün yerli şirkətləri arasında bu nailyyətə imza atan ilk şirkət olmuşdur. Azercell-in Twitter səhifəsinin hazırda 16 mindən çox izləyicisi mövcuddur.

Şirkətin təqdim etdiyi digər bir yenilik isə, Azercell abunəçilərinə öz Twitter səhifələrini internetə qoşulmadan, sms göndərməklə yeniləmək imkanı verəcəkdir. İlk dəfə xidmətə qoşulmaq üçün START yazıb 8800 qısa nömrəsinə SMS göndərmək lazımdır. Bu da Azercell abunəçilərinə SMS yazmaqla twitter yazıları yaratmaq imkanını vermiş olacaqdır.

Azercell sosial media sahəsində daim yeniliklərə imza atan şirkətdir. Şirkətin 150 mindən artıq fanı olan Facebook səhifəsində daim fərqli kampaniyalar keçirilir, hədiyyələr oynanılır. 0.facebook.com xidməti bütün Azercell abunəçilərinə öz telefonlarından pulsuz olaraq Facebook şəbəkəsindən istifadə etmək imkanı verir. Azecell-in Facebook-da təqdim etdiyi sosial müştəri xidmətlərinin effektivliyinə görə isə sosial medianın monitorinqini keçirən nüfuzlu “Socialbakers” tədqiqat mərkəzi şirkəti xüsusi sertifikata layiq görüb.

## Dmitri Peskov: "Vladimir Putinin idman zədəsi alması onun iş fəaliyyətinə maneəçilik törətmir"



"Vladimir Putinin idman zədəsi alması onun iş fəaliyyətinə maneəçilik törətmir". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidentinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskov bildirib. O, V.Putinin sağlamlıq problemləri ilə əlaqədar mətbuatda yazılan məlumatların yalan olduğunu söyləyib: "Vladimir Putin kimi hər gün idman edən insanlarda, xüsusən də idmançılarda belə problemlər olur. Putin təcrübəli idmançıdır. O, hər gün ciddi olaraq məşq edir. Prezident hal-hazırda iş başındadır. Onun gərgin iş qrafiki var". Rəsmi səfərlərin bir çoxunun təxirə salınmasının V.Putinin idman zədəsi ilə bağlı olmadığını söyləyən D.Peskov bu iddiaların yalan olduğunu bildirib.

Qeyd edək ki, Rusiya mətbuatında V. Putinin ciddi zədə alması və onun işə çıxmaması ilə bağlı məlumatlar yayılıb. Məlumatlarda bildirib ki, Rusiya prezidenti sağlamlığındakı problemlərlə əlaqədar Türkiyə və Hindistana rəsmi səfərlərini təxirə salıb. Onun belindən zədələndiyi barədə məlumatlar yayılıb.

Onu da qeyd edək ki, V.Putinin noyabrın 2-də Türkmənistana səfəri, Hindistan, Pakistan, Bolqarıstan və Ermənistana səfərləri dekabr ayına kimi təxirə salınıb.

## Aleks Miller: "Bakı İsrail–Türkiyə münasibətlərinin normallaşmasında vasitəçi ola bilər"

"Knessetdə "erməni soyqırımı"nın tanınması məsələsi dəfələrdə qaldırılıb. Mənim fikrimcə, bu tipli məsələlər akademiyalar və forumlarda alimlər səviyyəsində, həmçinin tarixi faktlara əsasən həll edilməlidirlər. İsrail Ermənistan və Türkiyənin daxili işlərinə aid məsələlərdə iştirak etməməlidir". Bu barədə jurnalistlərə israilli siyasətçi, "Bizim evimiz İsraildir" partiyasından Knessetin deputatı Aleks Miller bəyan edib. Onun sözlərinə görə, İsrail demokratik ölkə olduğu üçün Knesset deputatlara bu və ya digər məsələni qaldırmağı qadağan edə bilməz.

Deputat İsrail-Azərbaycan əlaqələri sahəsində siyasətçi parlamentlərarası münasibətlərin möhkəmləndirilməsini qeyd edib və qarşılıqlı səfərlərin vacib olduğunu bildirib: "Əgər azərbaycanlı parlamentarilər İsrailə, israilli deputatlar isə Azərbaycana səfər etsələr, biz sevinərik. Bu iki ölkə arasında qarşılıqlı əlaqələrin dərinləşməsinə səbəb ola bilər. Bundan əlavə, Azərbaycan vətəndaşlarının bəzi qrupları, o cümlədən tələbələr, müəllimlər, dövlət məmurları üçün viza rejiminin sadələşdirilməsi imkan var. Bu isə gələcəkdə Azərbaycan vətəndaşları üçün vizanın tamamilə ləğvinə gətirə bilər".

Aleks Miller bir daha tezliklə fəaliyyətə başlayacaq Azərbaycan-İsrail ticarət palatasının vacibliyini vurğulayıb. Beynəlxalq səviyyədə əməkdaşlıq perspektivlərinə toxunan A.Miller Bakının İsrail-Türkiyə münasibətlərinin normallaşması məsələsində vasitəçi ola biləcəyinə ümid etdiyini bildirib.

## Trabzonda Türk Dünyası Memarlıq və Şəhərçilik Qurultayı keçirilib

Türkiyənin Trabzon şəhərində V Türk Dünyası Memarlıq və Şəhərçilik Qurultayı keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə Valeh Hacılar Elmi-Mədəni Araşdırmalar Vəqfinin mətbuat xidməti məlumat verib. Valeh Hacılar Vəqfinin dəstəyi və təşkilatçılığı ilə keçirilən beynəlxalq qurultaya Türk Dünyasının bir çox şəhərlərindən 200-dən çox təmsilçi qatılıb. Qurultayda görkəmli alimlər və ictimai xadimlər, dövlət adamları, qonaqlar çıxış edərək müasir zamanda bu tədbirin böyük əhəmiyyət daşıdığını bildiriblər. Məlumata görə, tədbirdə Azərbaycanı Xarici İşlər Nazirliyinin əməkdaşı Dr. Fəxri Valehoğlu təmsil edib və məruzə ilə çıxış edib. Qurultayda "Uluslararası Memar Sinan Proje Olimpiadaları" müsabiqəsinin nəticələri açıqlanıb və qaliblərə Memar Sinan mükafatları təqdim olunub. Qurultayın keçirildiyi gün Trabzonun dünyanın ən qüdrətli hökmdarlarından Qanuni Sultan Süleymanın doğulduğu şəhərin sahil parkında bələdiyyənin Mehtəran orkestrinin ifasında Osmanlı marşlarının sədaları altında "Bilgə Xaqan Yazıtı" abidəsinin təntənəli açılış mərasimi keçirilib. Xatırladaq ki, Bilgə Xaqan Göytürk imperatorluğunun qurucusu olub.

Qurultayın mədəniyyət proqramı çərçivəsində Trabzon Avni Aker stadionunda yerli "Trabzonspor" futbol klubu ilə Qazaxıstanın Kokçetau (Göyçədağ) şəhərinin "Okzhetpes" futbol klubu arasında yoldaşlıq görüşü baş tutub. Həmçinin şəhərin Meydan adlanan mərkəzi hissəsində açıq havada populyar qazax, türkmən, başqırd və tatar müğənnilərinin iştirakı ilə konsert proqramı təşkil olunub.

Türkiyədə fəaliyyət göstərən Valeh Hacılar Elmi-Mədəni Araşdırmalar Vəqfinin mətbuat xidmətindən APA-ya bildirilib ki, "Atayurddan anayurda salamlar" və "Dildə, fikirdə, işdə birlik" şüarları altında Trabzonda təşkil edilən bu qurultay Borçalının Darvaz elində doğulan və Tiflisdə fəaliyyət göstərən görkəmli folklorşünas alim, şair və tədqiqatçı Valeh Hacıların xatirəsinə həsr olunmuş "Qafqaz xalqlarının folkloru və linqvokulturologiyası" beynəlxalq simpoziumundan (18-21 aprel 2012-ci il) sonra növbəti 4-cü möhtəşəm tədbirdir.

### Fikrət Əmirovun 90 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Dünən Azərbaycan Dillər Universitetində (ADU) görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. ADU mətbuat xidmətindən APA-ya verilən məlumata görə, konfrans 2 saylı İngilis dili fakültəsinin dekanı, dosent Vəfa Bənnayevanın təşəbbüsü və həmin fakültənin tələbələrinin iştirakı ilə baş tutub. V.Bənnayeva qonaqları salamlayaraq konfransı açıq elan edib və tədbirin tələbələrin Fikrət Əmirov yaradıcılığı ilə yaxından tanış olması məqsədini daşıdığını qeyd edib. F.Əmirovun həyat və yaradıcılığına həsr olunmuş videoçarxın nümayişindən sonra Azərbaycan Milli Konservatoriyasının professoru Nailə Rəhimbəyli profil nöqteyi-nəzərdən musiqi sahəsindən uzaq olan bir təhsil ocağında F.Əmirov yaradıcılığına həsr olunmuş konfrans keçirilməsini təqdirəlayiq bir addım hesab edərək, bunu yüksək qiymətləndirib: "Biz xoşbəxt xalqıq ki, Azərbaycanımızın Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev kimi bəstəkarları var".

Sonda tələbələrin ifasında F.Əmirov yaradıcılığından nümunələr səsləndirilib.

### Moskvanın "Qələbə Meydanı"nda məscid tikiləcək

Rusiya paytaxtında yerləşən "Qələbə Meydanı"nda məscid tikilməsi planlaşdırılır. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə nadir obyektlərin inkişafı və yenidən qurulması barədə Dövlət İdarəsinin rəisi Dmitriy Nekrasov bu gün keçirdiyi mətbuat konfransında bildirib. Onun sözlərinə görə, hal-hazırda "Qələbə Meydanı"nda məscid və buddist məbədi tikilməsi imkanları araşdırılır.

D.Nekrasov nadir obyektlərin inkişafı və yenidən qurulması Dövlət İdarəsinin paytaxtda 200 provaslav kilsəsinin tikinti layihəsində iştirak etdiyini söyləyib: "Paytaxtda digər dini konfesiyaların məbədlərinin tikintisi də planlaşdırılır. Qələbə Meydanında məscid və buddist məbədinin tikilməsi imkanlarına baxılır".

### Quranı yandıran şəxs həbs olunub

Serb polisi Belqradda nifrət və dözülməzlik təbliğatı ittihamı ilə Predraq Çosoviçi həbs edib. Çosoviçin Facebookdakı səhifəsində yerləşdirdiyi şəkildə onun Quran kitabını yandırdığı görünür.

Çosoviç bir ildən səkkiz ilədək azadlıqdan məhrum edilə bilər.

Çosoviçin yerləşdirdiyi şəkil Balkanlarda güclü etiraza səbəb olub. İslam bölgənin ənənəvi dinlərindən biridir. Son məlumatlara görə, Serbiya əhalisinin 3,2%-i müsəlmandır. Məlumatda müstəqilliyini elan etmiş Kosovo vilayəti nəzərə alınmır. Kosovoda əhalinin 90%-i müsəlmandır.

## Məşvərət Məclisi noyabrın 7-nə piket, 10-a mitinq təyin edib

Demokratik Qüvvələrin Məşvərət Məclisinin növbədənkənar iclası keçirilir. APA-nın məlumatına görə, iclasda qurumun noyabrın 3-nə təyin olunan, lakin paytaxt rəhbərliyinin razılıq vermədiyi mitinqlə bağlı məsələ müzakirə olunur. İclasda ilkin olaraq qərara alınıb ki, Məşvərət Məclisi noyabrın 7-də Bakı Şəhər İcra Hakimiyyətinin binası qarşısında mitinqə icazə verməməsinə etiraz olaraq piket keçirsin. Demokratik seçkilərin keçirilməsi, Seçki Məcəlləsinə dəyişikliklər, ölkədə demokratik mühitin yaradılması, rüşvət və korrupsiyaya son qoyulması tələbləri ilə keçirməsi nəzərdə tutulan mitinq isə noyabrın 10-na təyin olunub.

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyəti Demokratik Qüvvələrin Məşvərət Məclisinin paytaxtın Azadlıq və Füzuli meydanlarında, Səməd Vurğun bağı, Nərimanov kinoteatrı və Təbriz kinoteatrının qarşısında noyabrın 3-nə keçirilməsini məqsədəuyğun saymayıb.

Paytaxt rəhbərliyi bunun əvəzində aksiyanın Bibiheybət qəsəbəsi, 20-ci sahə yaşayış massivi, Elçin Əzizov küçəsində yerləşən Sürücülük Məktəbinin həyətindəki meydançada keçirilməsini təklif edib.

### Səhlab Bağırov: "İctimai Palatanın Milli Məclisin qarşısında aksiya keçirməsinə imkan verilməyəcək"

Bakı polisi İctimai Palatanın bu gün Milli Məclisin qarşısında razılaşdırılmamış aksiya keçirməsinə imkan verməyəcək.

Bu barədə APA-ya açıqlamasında Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki Səhlab Bağırov bildirib.

Rəis müavini qeyd edib ki, paytaxtda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış aksiyaların keçirilməsi yolverilməzdir: "Qəti şəkildə bildirirəm ki, kimlərsə paytaxtda ictimai qaydanı pozaraq razılaşdırılmamış aksiya keçirməyə cəhd edərsə, qarşısı alınacaq".

Qeyd edək ki, Bakı şəhər İcra Hakimiyyəti İctimai Palatanın noyabrın 2-nə təyin etdiyi aksiya ilə bağlı müraciətə cavab verib. İP katibi Gülağa Aslanlının APA-ya verdiyi məlumata görə, şəhər rəhbərliyi cavab məktubunda qurumun Milli Məclisin qarşısında piketin keçirilmək istəyini məqsədəuyğun saymayıb. Bundan əlavə, aksiyanın keçirilməsi üçün başqa yer də təklif etməyib.

G.Aslanlı qeyd edib ki, İP aksiyanı keçirməkdə israrlı olduğundan BŞİH-in cavabını gözləmədən sayır. O bununla bağlı yaxın iki gün ərzində İP-də ayrıca müzakirələrin aparılacağını da deyib.

Qeyd edək ki, İP noyabrın 2-də saat 12.00-da Milli Məclisin binası qarşısında "Sərbəst toplaşmaq azadlığı haqqında" qanuna edilənək dəyişikliklərə etiraz olaraq, "Sərbəst toplaşma azadlığına qoyulan qadağaya yox deyirik!" şüarı ilə piket keçirəcək.

## Doktoranturaya fəlsəfə fənnindən qəbul imtahanında yenilik tətbiq olunacaq

Gələn il Azərbaycanda doktoranturaya fəlsəfə fənnindən qəbul imtahanında yenilik tətbiq olunacaq. Bunu APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) doktoranturaya fəlsəfə fənnindən qəbul imtahanı komissiyasının sədri, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun direktoru İlham Məmmədzadə bildirib.

Onun sözlərinə görə, ictimai və fundamental elmlər üçün fəlsəfədən sualların fərqli olması təklif ediləcək: "Hazırda fundamental və ictimai elmlər üçün fəlsəfə sualları təxminən eynidir. Bu il keçirilən imtahanlar göstərdi ki, fundamental elmlərin iddiaçıları ilə müqayisədə humanitar və ictimai elmlərin namizədləri daha dərin biliklərə malikdirlər. Bu ilin sonunda fəlsəfə fənnindən doktoranturaya qəbul imtahanlarının keçirilməsinə dair təkliflərimizi hazırlayıb təqdim edəcəyik. Bu, vacib bir məsələdir. Elmə gələn gənclərin sayı o qədər də çox deyil. Ona görə də çalışmalıyıq ki, imtahanlar rəqabəti aydınlaşdırmağa yanaşı, gənclərin elmdən qorxutmasın. Gənc alimlərin formalaşması üçün doktorantura çox gözəl bir yoldur".

İ.Məmmədzadə deyib ki, hazırlanacaq təkliflərdə fəlsəfə fənni üzrə tədris vəsaitlərinin çoxaldılması və fəlsəfədən qəbul imtahanlarına daha çox vaxtın ayrılması da əks olunacaq: "İstərdik ki, fəlsəfəyə aid tədris vəsaitləri daha çox olsun. Rusiyada humanitar və fundamental elmlər üzrə fəlsəfədən tədris vəsaitləri də fərqlənir. Digər tərəfdən, hazırda fəlsəfə fənnindən doktoranturaya qəbul imtahanları qısa müddət ərzində keçirilir. Halbuki bu müddət ərzində iddiaçıların fəlsəfi biliklərini yoxlamaq bir qədər çətindir. Bunun üçün daha çox vaxt ayırmaq lazımdır".

### Avropa Şurasının komissarı Nils Muyjnieks Azərbaycana gələcək

Noyabrın 5-də Avropa Şurasının insan haqları komissarı Nils Muyjnieks Azərbaycana gələcək. APA-nın Avropa Şurasına istinadən yaydığı məlumata görə, səfərdə məqsəd Bakıda keçiriləcək İnternet İdarəetməsi Forumu çərçivəsində "Təhlükəsizlik və onlayn KİV" forumunda iştirak etməkdir. Nils Muyjnieks səfər çərçivəsində rəsmi şəxslərlə görüş keçirəcək, Azərbaycanda insan haqlarının durumunu müzakirə edəcək. Səfər noyabrın 7-də başa çatacaq.

Xatırladaq ki, bu, Nils Muyjnieksin Avropa Şurası insan haqları komissarı postunda ölkəmizə ilk səfəri olacaq. O yeni vəzifəsinin icrasına bu ilin aprelində başlayıb.

## Goranboyda boru oğurluğu ilə məşğul olanlar cəzalandırılacaq

"Son günlər bəzi kütləvi informasiya vasitələrində Goranboy rayonu ilə bağlı həqiqətə uyğun olmayan, heç bir jurnalist araşdırılması aparılmadan, dəqiqləşdirilməmiş məlumatlar yer alıb". Bu barədə APA-ya Goranboy rayon İcra Hakimiyyətindən (İH) daxil olan məlumatda bildirilib. Məlumatda qeyd olunub ki, yazıların birində guya Meliorasiya və Su Təsərrüfatı ASC-yə məxsus boru xəttinin 1000 metrinin kəsilərək oğurlanması və bu hadisənin açılmasında rayon rəhbərliyinin maraqlı olmaması barədə yanlış məlumat yayılıb: "Məlumat üçün bildiririk ki, 1988-ci ildə diametri 1000 mm olan boru ilə Xan Qərvənd kəndində fəaliyyət göstərən Lenin adına kolxozun vəsaiti hesabına əkin sahələrinin suvarılması üçün Yuxarı Qarabağ kanalından təxminən 1611 metr uzunluğunda su xəttinin çəkilişinə başlanmış, 1991-ci ildə xəttin çəkilişi dayandırılıb. Sonradan Lenin adına kolxoz bir neçə kəndi əhatə etdiyindən hər bir kənddə yeni kolxoz yaradılıb. O cümlədən Əlirzalı kəndində kolxoz yaradılıb, yuxarıda qeyd edilən su boru kəməri Əlirzalı kolxozunun balansına verilib. Lakin bələdiyyələr yaranarkən kəmər Əlirzalı bələdiyyəsinin balansına verilməmiş, sahibsiz qalıb. Dəfələrlə müəyyən təşkilatlar tərəfindən boru xəttinin götürülməsi ilə bağlı rayon İcra Hakimiyyətinə müraciətlər edilib, lakin razılıq verilməyib. 13 aprel 2012-ci ildə gecə radələrində boru xəttinin təxminən 291 metri naməlum şəxslər tərəfindən oğurlanıb. Bələdiyyə tərəfindən bununla bağlı rayon Polis şöbəsinə və rayon Prokurorluğuna rəsmi müraciət edilib. Faktla bağlı rayon Prokurorluğunda cinayət işi qaldırılıb. Eyni zamanda su boru kəmərinin qalan 1320 metr hissəsi aktla mühafizə edilmək üçün Əlirzalı bələdiyyəsinin balansına verilib".

Bildirilib ki, rayon Polis Şöbəsinin keçirdiyi əməliyyat nəticəsində 8 avqust 2012-ci il tarixdə 18 metr borunun oğurlanmasının qarşısı alınıb. Hazırda faktla bağlı istintaq işi davam edir: "Qeyd etmək istəyirik ki, boru xəttinin mühafizəsi barədə rayon Polis Şöbəsinə və Əlirzalı bələdiyyəsinə müvafiq göstərişlər verilib. Kəmər mövcud vəziyyətdə olaraq qalır. Bir daha bildirmək istəyirik ki, kütləvi informasiya vasitələrində boru xətti ilə bağlı yazılanlar bütünlüklə yanlış xarakter daşıyır. Cinayət işinin açılması ilə bağlı guya rayon Prokurorluğuna təzyiq göstərilməsi ilə bağlı yazılanlar da həqiqətə uyğun deyil. Əksinə, rayon rəhbərliyi bu işin tez bir zamanda açılmasında və cinayətkarların öz layiqli cəzalarına çatmasında maraqlıdır".

## Riçard Morninqstar Naxçıvan Dövlət Universitetində olub

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard Morninqstar muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. APA-nın AzərTAc-a istinadən verdiyi xəbərə görə, səfir universitetdə 2003-cü ildən fəaliyyət göstərən Ernest Heminquey Elmi-Tədqiqat Mərkəzi ilə tanış olub, qonağa Amerika və dünya ədəbiyyatının, ədəbi əlaqələrin öyrənilməsi ilə bağlı məlumat verilib.

Səfir Riçard Morninqstar universitetin kampusunu gəzmiş, tədris korpusları ilə tanış olub. Amerikalı diplomatla keçirilən görüşdə universitetin rektoru, akademik İsa Həbibbəyli Azərbaycanda elmin, təhsilin inkişafına göstərilən qayğıdan, dünya elm, təhsil sisteminə inteqrasiya baxımından beynəlxalq tərəfdaşlığın əhəmiyyətindən bəhs edib.

Rektor Naxçıvan Dövlət Universitetinin inkişaf yolu, strukturu, maddi-texniki bazası, beynəlxalq əlaqələri haqqında məlumat verib. Qeyd olunub ki, Avropa Rektorlar Klubunun, Asiya Universitetləri Assosiasiyasının üzvü olan, dünyanın 76 tanınmış universiteti ilə tərəfdaşlıq edən, 10 ölkədən 300-ə yaxın xarici vətəndaşın təhsil aldığı bu ali məktəb ABŞ-ın Perdu Kalument, Çikaqo universitetləri ilə əməkdaşlığa malikdir. Ali təhsil ocağı NATO, BMT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatların layihələrində uğurla iştirak edir.

Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri muxtar respublika və Naxçıvan Dövlət Universiteti haqqında təəssüratlarını bölüşüb.

Tədbirdə universitetlərarası əməkdaşlıq məsələləri müzakirə olunub, virtual əlaqələrin inkişafı məqsədi ilə birgə videokonfransların keçirilməsi, tələbələrin Amerika universitetlərində təhsilə cəlb olunması ilə bağlı ilkin razılaşmalar əldə edilib.

Amerikalı diplomat tələbələrlə görüş zamanı ölkələrarası diplomatik münasibətlərin əhəmiyyətindən danışıb.

Sonra diplomat tələbələrin suallarını cavablandırmış, gənclərin ölkənin hərtərəfli inkişafındakı rolundan, üzərlərinə düşən vəzifələrdən bəhs edib.

## Bakı İstedadlar Təhsil Kompleksinin bağça və məktəbəqədər təhsil bölməsinin açılış mərasimi keçirilib

Dünən Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevin iştirakı ilə Bakı İstedadlar Təhsil Kompleksinin bağça və məktəbəqədər təhsil bölməsinin açılışı olub. "APA-Economics"in məlumatına görə, şirkət rəhbərinə Bakı İstedadlar Təhsil Kompleksi haqqında ətraflı məlumat verilib və bildirilib ki, bu təhsil ocağı bütün dünyada məşhur olan ingilis məktəbləri tipində və həmin məktəblərin standartları əsasında fəaliyyət göstərəcək. Bibiheybət qəsəbəsində 7 hektar ərazidə inşa olunmuş Bakı İstedadlar Təhsil Kompleksinin bağça və məktəbəqədər təhsil bölməsində təhsil alacaq 3-5 yaşlı uşaqlar üçün rəsmxət otağı, interaktiv lövhə, musiqi, təsviri sənət nümunələri, teatr səhnəciklərinin hazırlanması üçün otaqlar, fənn kabinetləri, kitabxana, konstruksiya bürosu, emalatxana, istirahət guşəsi, üzgüçülük hovuzu, idman zalı, 200 nəfərlik zal, yeməkxana və mətbəx yaradılıb.

Bağça və məktəbəqədər, ibtidai və orta təhsil bölmələrindən ibarət 1 200 şagird üçün planlaşdırılmış Bakı İstedadlar Təhsil Kompleksində yaxın müddətdə digər bölmələr üçün 100 yerlik kitabxana, iki idman zalı, 400 metrlik qaçış zolağı, 900 nəfərlik akt zalı, konfrans otaqları, pedaqoji heyət üçün iş otaqları, elmi laboratoriyalar, daxili hovuz, futbol və basketbol meydançaları, ibtidai və orta təhsil bölmələri üzrə ayrı-ayrı yeməkxana və mətbəxlər, 120 şagirdlik yataqxana, tibb məntəqəsi, 3D planetarisi, robot texnikası və animasiya otaqlarının yaradılması planlaşdırılır.

Yüksək səviyyəli kadr hazırlığına, respublikada praktiki öyrənmə metodlarının, o cümlədən İngiltərə-Uels kurikulumunun aspektlərinin tədris olunmasına xidmət edəcək Kompleksdə təhsil alacaq şagirdlərin yaşına və inkişaf dövrünə uyğun olan mütərəqqi təlim mühitinin təmin edilməsi, zəkalı düşüncə tərzi üzrə zəruri bacarıqların inkişaf etdirilməsi, informasiya texnologiyalarından istifadə etməklə effektiv tədrisin həyata keçirilməsi nəzərdə tutulur.

Yaradılmış şəraitdən razı qaldığını söyləyən R.Abdullayev bildirib ki, Bakı İstedadlar Təhsil Kompleksi təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində yaşayan, yüksək intellektual qabiliyyətə və parlaq istedada malik uşaqların aşkara çıxarılması və onlara müasir standartlar səviyyəsində bilik və bacarıqların aşılanması üçün nəzərdə tutulmuş yeni tipli təhsil müəssisəsidir. ARDNŞ rəhbəri onu da bildirib ki, Kompleksdə imkansız ailələrdən olan uşaqlara xüsusi qayğı və diqqət göstəriləcək.

Qeyd edək ki, Kompleksin açılış mərasimində ARDNŞ rəhbərliyi, İngiltərənin "Gabbitas" təhsil məsləhətçi şirkətinin nümayəndəsi Hyu Monro, məktəbin rəhbərliyi və valideynlər iştirak ediblər.

## Moskvada azərbaycanlı tələbəni qətlə yetirən şəxs polisə təslim olub

Rusiya paytaxtında vəhşicəsinə qətlə yetirilən 22 yaşlı azərbaycanlı tələbənin axtarışda olan qatili könüllü olaraq polisə təslim olub.

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Rusiya Dövlət Təhqiqat Komitəsinin xüsusi nümayəndəsi Vladimir Markin bildirib. Onun sözlərinə görə, Azərbaycan vətəndaşının qətlində şübhəli bilinən şəxslərdən Andrey Alyoxin könüllü olaraq hüquq-mühafizə orqanlarına təslim olub: "Alyoxin KİV-də axtarışda olması barədə məlumatı görüb və müstəntiqin yanına gələrək cinayətdə iştirak etdiyini söyləyib".

Qeyd edək ki, bu ilin sentyabrın 5-də polis əməkdaşları Dmitri Kolotovkin, Aleksandr Vlasenko, Artyom Skubakdır və onların tanışı, yol müfəttişi vəzifəsində staj keçən Andrey Alyoxin Azərbaycan vətəndaşı Seymur Ağahüseyn oğlu Ağayevi girov götürüblər. Dəstə Seymuru şəhər kənarında yerləşən əraziyə gətirərək, onu 77 bıçaq zərbəsi ilə qətlə yetirib. Onlar qətli törətdikdən sonra S. Ağayevin qiyməti 100 min ABŞ dollarından yüksək olan "BMW-GT" markalı maşınını qaçırıblar. Dəstə üzvləri mərhumun ailəsinə zəng edərək, yalandan onun sağ olduğunu deyib, girovun azad edilməsi müqabilində 150 min avro pul tələb ediblər.

## Silahlı Qüvvələrə Yardım Fonduna yığılan vəsait son bir ayda 1 milyon 480 min dollar artıb

Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna yığılan vəsaitin həcmi son bir ay ərzində 1162083,6 manat (1480550 dollar) artıb. Bu barədə APA-ya Müdafiə Nazirliyindən məlumat verilib. Noyabrın 1-i tarixinə Fondun manat hesabına yığılmış vəsaitin məbləği 32532507 manat (1159729 manat artım), ABŞ dolları hesabındakı vəsait 202791 dollar (3000 dollar artıb), avro hesabındakı vəsait isə 593 avro təşkil edib. Ümumilikdə Fondun vəsaitləri 41 milyon 651 min 358 ABŞ dollarıdır.

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan prezidentin 17 avqust 2002-ci il tarixli sərəncamı ilə yaradılıb. Sərəncama əsasən, Silahlı Qüvvələrə Yardım Fondu respublika ərazisində fəaliyyət göstərən fiziki və hüquqi şəxslərdən könüllü olaraq daxil olan vəsait və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalar hesabına formalaşır.

# "Hansı partiya daha çox yardım almaq istəyirsə, deputatlarının sayını artırsın"

**Müsahibimiz Yeni Azərbaycan Partiyasından olan (YAP) millət vəkili Aydın Mirzəzadədir.**



***— Aydın müəllim, məlum olduğu kimi, gələn il partiyaların dövlət büdcəsindən maliyyələşdirilməsinə başlanılacaq. Ancaq belə fikirlər var ki, onsuz da hakim partiyanın maliyyə resursları kifayət qədərdir. Hətta, burada başqa məqamlara işarələr vurulur ki, bu maliyyə bir o qədər də düzgün olmayan mənbələrdən gəlir. Yəni, bunun fonunda yardım YAP-dan daha çox digər parlament partiyalarına və parlamentdən kənarda qalan nüfuzlu partiyalara olunmalıdır...***

— Birincisi, YAP qanundan kənar heç bir maliyyə almır. Onun maliyyə mənbəyi ancaq və ancaq üzvlük haqqıdır və bu qanun qüvvəyə mindikdən sonra dövlət tərəfindən yardım edilən yardım olur. Digər tərəfdən, yenə bir məqamı vurğulamaq istəyirəm ki, siyasi partiyalara dövlət tərəfindən maliyyə yardımı bu, əlavə yardımdır, əsas yardım deyil. Partiyalara əsas diqqətlərini üzvlük haqqına və ianələr toplamalıdır. Digər tərəfdən, əgər hansısa partiya parlamentdə kifayət qədər səs toplayıb və maliyyə yardımı alıbsa, həmin maliyyə nəyə görə digər partiyalar arasında bölünməlidir? Kimsə daha çox yardım almaq istəyirsə, parlamentdə təmsilçilərinin sayını artırsın...

***— Hər il YAP maliyyə hesabatı verir. Bu da müxalif düşərgədə birmənalı qarşılanmır ki, yəni, YAP xərclədiklərinin fonunda — qanuni və qeyri qanuni, onların fikridir, çox cüzi və gülməli rəqəmlər açıqlayır...***

— Gülməli hesab edirəm ki, burada müxalifətin YAP-a qarşı sürdüyü iraddır. YAP-ın bütün fəaliyyəti, o cümlədən maliyyə fəaliyyəti kifayət qədər şəffafdır və çox istərdik ki, heç olmasa, bir dəfə müxalifət partiyaları da illik maliyyə hesabatını açıqlasın. YAP-dan fərqli olaraq heç bir müxalifət partiyası bu gün illik maliyyə hesabatını açıqlamır. Onların aparatının, onların xarici səfərlərinin, onların qəzetlərinin haradan maliyyə mənbəyi alması cəmiyyət üçün kifayət qədər qaranlıqdır və bu gün bu məsələyə aydınlıq gətirmək əvəzinə YAP-a böhtan atmaq, təəssüf ki, onların bir fəaliyyət proqramına çevrilib.

***— Amma onlar bu iddiaya qarşılıq olaraq hər zaman bildirirlər ki, elə bir maliyyə mənbələri olmadığı üçün onu geniş açıqlamağa da ehtiyac yoxdur...***

— Lap bir manatlıq maliyyə mənbəyi varsa, o da açıqlanmalıdır. Elə isə sual edirəm: partiya sədrləri haradan maliyyələnirlər? Onların cangüdənləri, onların köməkçiləri, onların aparatı haradan maliyyələşir? Doğrudanmı, onlar ailəsinə heç bir maliyyə vəsaiti aparmır və ancaq könüllülük əsasında işləyirlər? Nəsə buna inanmağım gəlmir...

***— Ümumiyyətlə, bu məsələ, yəni, gözlənilən maliyyə yardımı siyasi partiyaların maliyyə şəffaflığına kömək edə biləcəkmi?***

— Mənə elə gəlir ki, bu, həmin istiqamətdə atılan addımlardan biridir. Mən istəməzdim ki, partiyaların, hansı ki, dövləti, cəmiyyəti idarə etmək iqtidarındadırlar,daha doğrusu, iddiasındadırlar, maliyyə yardımı məsələlərinə, maliyyə şəffaflığı məsələlərinə yönəlik inzibati addımlar atılsın. Bu, artıq partiyaların özünün daxili istəyindən gəlməlidir.

**Kamil HƏMZƏOĞLU**

# *Millət vəkili:* "Gürcüstanla yüksək münasibətlər bundan sonra da davam edəcək"

"Gürcüstanda yeni hökumətin formalaşdırılması Azərbaycanla bu ölkənin münasibətlərinə təsir göstərməyəcək. Bəzi dairələrin bu haqda fikirlərinin əsası yoxdur". Bu sözləri mətbuata açıqlamasında Milli Məclisin üzvü Mübariz Qurbanlı deyib.

M.Qurbanlının bildirdiyinə görə, Azərbaycan və Gürcüstan strateji tərəfdaş ölkələrdir. Tərəflər arasında böyük əhəmiyyət kəsb edən müqavilələrin olduğunu xatırladan millət vəkili bu müqavilə öhdəliklərinə hər iki dövlətin bundan sonra da əməl edəcəyini qeyd edib:

"Hər hakimiyyət dəyişikliyi zamanı dövlət siyasətinin də dəyişməsini düşünməli olsaq, bu çox yanlış olardı. Hökumətin dəyişməsi dövlət siyasətinin dəyişməsi demək deyil. Dövlətlərin siyasəti uzunmuddətli strategiyaya və perspektivə əsaslanır. Bu mənada Azərbaycan və Gürcüstan arasında mövcud olan yüksək münasibətlər bundan sonra da davam edəcək".

**Kamil HƏMZƏOĞLU**

# Sahibə Qafarovanın beynəlxalq konfransda məruzəsi dinləniləcək



Milli Məclisin üzvü, professor Sahibə Qafarova Avropa Şurası ilə Türkiyə Böyük Millət Məclisinin birgə təşkil etdiyi konfransda iştirak etmək üçün noyabrın 2-də Türkiyənin İstanbul şəhərinə səfərə yola düşəcək. "525" xəbər verir ki, gender məsələlərinə həsr olunmuş tədbirdə qadınların siyasi və sosial hüquqları təşviq ediləcək, iqtisadiyyata və maliyyə işlərinə daha yaxından cəlb olunması yolları araşdırılacaq. Mədəniyyət və incəsənət sahələrində, eləcə də KİV-də qadınların mövqeyinin gücləndirilməsi zərurətindən danışılacaq. Konfransda qadınlara qarşı zorakılıqla mübarizə məsələsi diqqət mərkəzində olacaq.Qeyd edək ki, konfrans zamanı Azərbaycan parlamentinin üzvü , AŞ Parlament Assambleyasının irqçilik və ksenofobiya üzrə Alt Komitəsinin sədri S. Qafarovanın məruzəsi dinləniləcək.

Onu da qeyd edək ki, səfər noyabrın 9-da başa çatacaq.

**Kamil HƏMZƏOĞLU**

# Millət vəkili Avropa Şurasının Yerli Hakimiyyətlər Konqresinə öz etirazını bildirdi

Avropa Şurasının (AŞ) Yerli Hakimiyyətlər Konqresi Azərbaycanda bələdiyyə sistemini ciddi tənqid edib. "525"AŞPA-nın rəsmi saytına istinadən bildirir ki, Starsburqda oktyabr ayında keçirilən Yerli Hakimiyyətlər Konqresinin iclasında Azərbaycanda bələdiyyə hakimiyyətinin vəziyyəti ilə bağlı məruzə dinlənilib. Azərbaycanla bağlı məruzəni Hollandiyadan olan məruzəçi Yos Viena və avstriyalı Qudrun Mosller-Ttorster edib.Onların məruzəsində Azərbaycanda 2003-cü ildən sonrakı dövrdə aparılmış monitorinqin nəticələrinə qiymət verilib və vurğulanıb ki, Azərbaycanda bələdiyyə orqanlarının 3 assosiasiyası yaradılsa da, onlar bələdiyyə maraqlarının müdafiəsində fəal rol oynamırlar.

Bununla yanaşı, məruzədə Azərbaycan ratifikasiya etdiyi "Yerli idarəetmə haqqında" Avropa xartiyasının xeyli sayda qaydalarına əməl etməməkdə ittiham olunub. "Azərbaycanda faktik olaraq yerli və regional demokratiya mövcud deyil. Situasiyanı dəyişmək üçün planlar da yoxdur"-deyə məruzədə qeyd olunub.

Sənəddə vurğulanıb ki, bələdiyyə qurumları yerli dövlət strukturlarının güclü nəzarəti altındadır və adıçəkilən Konqres Azərbaycan hökumətini tövsiyələri həyata keçirmək üçün təxirəsalınmaz tədbirlər gerçəkləşdirməyə çağırıb.

Konkret fəaliyyət planı çərçivəsində Konqres Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovu 2013-cü ilin oktyabrında müzakirələr üçün Konqresə dəvət edib.

Bununla bağlı qəzetimizə açıqlamasında bələdiyyə sahəsi üzrə tanınmış mütəxəssis, Milli Məclisin (MM) Regional məsələlər komitəsinin üzvü Tahir Rzayev isə bildirib ki, Azərbaycan bələdiyyələrinin fəaliyyətsizliyi haqqında AŞ-nin Yerli Hakimiyyətlər Konqresi tərəfindən söylənilən fikirlər həqiqəti əks etdirmir və yerli özünüidarəetmə orqanlarının inkişafı ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlərin əksinədir. Millət vəkilinin sözlərinə görə, çünki fəaliyyət göstərdikləri müddət ərzində ölkə bələdiyyələrinin işini səmərəli təmin etmək üçün lazımi hüququ baza yaradılıb, onlarla qanunvericilik aktına əlavə və dəyişikliklər edilib: "Həm də son illər qəbul olunmuş bir çox qanunlarda bələdiyyələrin hüquq və vəzifələrini aydın göstərən maddələr öz əksini tapıb, xarici və yerli təcrübəyə əsaslanaraq yerli özünüidarəetmənin təkmilləşdirilməsi üçün mütərəqqi tədbirlər həyata keçirilib. Bu baxımdan, Avropa Şurasının Yerli Hakimiyyətlər Konqresinin tövsiyələrinə əsasən ölkədə bələdiyyə assosiasiyalarının yaradılması yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi sahəsində əhəmiyyətli rol oynayıb.

Bu qurumlar- şəhər, qəsəbə və kənd bələdiyyə assosiasiyaları bir çox ölkə bələdiyyələri, beynəlxalq təşkilatlarla əlaqə qurmaqla bərabər, həm də assosiasiya nümayəndələri Avropa Şurasının mötəbər tədbirlərində iştirak edib, səmərəli tövsiyələrin yerlərdə işə tətbiq edilməsinə nail olublar. Assosiasiyaların xətti ilə regionlarda da bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib. Ona görə də bu gün Azərbaycanda bələdiyyə assosiasiyalarının tam fəaliyyətsiz olması barədə yürüdilən fikirlər həqiqətə uyğun deyil".

T.Rzayev qeyd edib ki, Azərbaycan bələdiyyələri gündən- günə inkişaf edir və onların maddi texniki bazası yüksəlir: "Yerli özünüidarəetmə sahəsində həyata keçirilən islahatlar buna əyani sübutdur. Azərbaycanda keçirilən bələdiyyə seçkiləri, bələdiyyələrin birləşməsi prosesi, bələdiyyə və vətəndaş cəmiyyətləri arasında formalaşan əlaqələr, bələdiyyə üzvlərinin keyfiyyət tərkibinin yaxşılaşması buna nümunədir.Son altı ayda keçən illə müqayisədə bələdiyyə büdcəsinin iyirmi üç faiz artması deməyə imkan verir ki, bələdiyyələr artıq öz vəsaitlərinin toplanması və büdcələrinin formalaşması üçün lazımi tədbirlər görürlər.Əlbəttə, Azərbaycanda bəzi bələdiyyələrin fəaliyyətində nöqsanlar, çatışmamazlıqlar var və bu, cəmiyyət tərəfindən tənqid edilir. Ancaq bu nöqsanları bütün yerli özünüidarəetmə orqanlarının adına yazmaq və ölkədəki bələdiyyələri fəaliyyətsiz bir qurum kimi qələmə vermək Avropa Şurasının rəsmilərinə yaraşmır və qərəzli bir mövqedir. Azərbaycan dövləti və eləcə də, hər bir ölkə vətəndaşı bələdiyyələrin inkişafında maraqlıdır. Bunun üçün lazım olan tədbirlər görülür və bundan sonra da görüləcək".

**Kamil HƏMZƏOĞLU**

# "Rəsul Quliyevin cəmiyyətdə heç bir ciddi sosial bazası yoxdur"

"Rəsul Quliyevin Azərbaycan cəmiyyətində heç bir ciddi sosial bazası və dayağı yoxdur. O, siyasi cəhətdən tükənmiş, bitmiş bir insandır". Bunu mətbuata açıqlamasında Milli Məclisin (MM) İnsan hüquqları komitəsinin sədri, professor Rəbiyyət Aslanova eks-spiker, Açıq Cəmiyyət Partiyasının (ACP) lideri Rəsul Quliyevin Azərbaycanda hakimiyyətə gəlmək məqsədilə Rusiyadan dəstək almaq və həmin ölkənin prezidenti ilə görüşmək cəhdində bulunması ilə bağlı mətbuatda yer alan məlumatlara münasibətini bildirərkən dilə gətirib. "Onun hakimiyyətə gəlməsi bir tərəfə qalsın, seçkilərdə iştirakı belə sual altındadır"-deyən, R.Aslanovanın sözlərinə görə, əslində bu cür məlumatları dövriyyəyə buraxanlar və onların ictimailəşməsində maraqlı olanlar bununla hansısa uğura nail olacaqlarını düşünürlərsə, ciddi şəkildə səhvə yol verirlər və yanılırlar: "İndi Azərbaycan ötən əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəlləri olan bir ölkə deyil. İnsanlarımız da ötən illər ərzində siyasi cəhətdən yetkinləşib, müdrikləşiblər. Onlar artıq nəyin nə, kimin kim olduğunu gözəl bilirlər, ağı qaradan seçməyi bacarırlar. İndi artıq xalqımızı hansısa quru vədlərlə, bayağı şüarlarla, ucuz bəyanatlarla, açıqlamalarla nəyə isə inandırmaq mümkün deyil, bu dövr çoxdan ötüb-keçib, arxada qalıb".

Komitə sədri qeyd edib ki, Azərbaycan xalqı 1993 və 2003-cü ildən bu yana öz seçimini edib və bu seçimində də yanılmayıb: "Çox güman və mən buna qəti əminəm ki, müdrik xalqımız bu dəfə də öz seçimində tərəddüd etməyəcək, çətinlik çəkməyəcək. Budəfəki seçkilərdə də Azərbaycan xalqının seçimi indiki iqtidarın namizədi, hörmətli Prezidentimiz İlham Əliyev olacaq". R.Aslanova eyni zamanda bildirib ki, seçki məsələsi Azərbaycan xalqının və dövlətinin öz daxili işidir, heç kim onun daxili işinə, seçiminə müdaxilə edə bilməz: "Eyni zamanda, Azərbaycanla qonşu Rusiya arasında strateji müttəfiqlik münasibətlərinə söykənən hərtərəfli əməkdaşlıq əlaqələri mövcuddur. Münasibətlərin bu cür yüksək səviyyəyə gəlib çıxmasında da mərhum dövlət başçımız Heydər Əliyevin, onun kursunun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin xidmətləri müstəsnadır, danılmazdır.

Bu gün eyni zamanda, iki dövlətin başçıları arasında çox gözəl dostluq münasibətlər var , hər iki ölkə və xalq da bu münasibətlərdən faydalanmaqdadır. Ona görə hesab edirəm ki, dost və qonşu bir dövlət kimi Rusiya da Azərbaycanın daxili işlərinə qarışmayıb və bundan sonra da qarışmayacaq. Ümumiyyətlə, heç bir dövlət Azərbaycanın daxili işlərinə, Azərbaycan xalqının seçiminə qarışa , müdaxilə edə bilməz və heç bu iqtidarda da deyillər. Azərbaycan dövləti kifayət qədər güclü, dünyada artıq hesablaşılan, sözü eşidilən, rəyi nəzərə alınan bir dövlətdir. Odur ki, indi kimlərsə yenidən boş yerə zəhmət çəkib boş xəyallara qapılmasınlar, "bəlkə də qaytardılar" xülyası ilə yaşamasınlar..."

**Kamil HƏMZƏOĞLU**

# Örnək həyat yaşayan müəllim

Bu, ən sadə təqdimatıdır professor Nəsir Əhmədlinin. 70 yaşını qeyd etmiş müəllimim onun haqqında indi yazmağımı, düşünürəm ki, adi qarşılayacaq. Çünki özünün də mətbuatda yayımlanan müsahibəsində vurğuladığı kimi, 1943-cü ildə doğulsa da, sənəddə 1942-ci il yazılıb. Deməli, yubileyi hələ bir il davam edəcək...

"Əsl müəllim necə olmalıdır" sualı hər zaman insanları düşündürüb. Müəllimə müxtəlif təriflər verilib, müəllimin kimliyini hərə bir cür izah edib. Mən isə onların içərisində birini daha doğru hesab edirəm. Belə bir fikir var ki, pis müəllim təsvir edir, yaxşı müəllim izah edir, əla müəllim göstərir, dahi müəllim həvəsləndirir, həqiqi müəllim isə arxasınca aparır. Biz tələbələri üçün Nəsir müəllim həqiqi müəllimdir. Hər birimizi oxumağa, öyrənməyə həvəsləndirməklə yanaşı, arxasınca aparan HƏQİQİ MÜƏLLİM...

Jurnalistika fakültəsinin çox sevilən müəllimləri sırasındadır bizim Nəsir Əhmədli. Müharibə dövründə, atası və qardaşı cəbhədə olanda Tovuz rayonunda dünyaya göz açıb. Uşaqlıq illərini kədərlə xatırlayır. Müharibənin çətinlikləri, əzab-əziyyətləri uşaqlığına birbaşa təsir edib. Anasının çəkdiyi ifadə olunmaz əziyyətləri gözləri dolmadananabilmir... Yoldaşı və böyük oğlu cəbhədə döyüşən ananın həyat mübarizəsi, min birzülmlə, cəfakeşliklə onları böyütməsi, həmin dövrdə insanların səfalət içərisində yaşamaları həyatının ən acı illəri kimi yaddaşına yazılıb:

Nəsir Əhmədli uşaqlıqdan elm fədaisi olub, ruhu, qəlbindəki ifadə edilməz hisslər onu məhz elmə, biliyə həvəsləndirib. Boyunun balaca olması əsas gətirilərək məktəbə qəbul edilməyinə maneələr törədilən balaca Nəsir həyat mübarizəsinə də elə həmin vaxtdan başlayıb. Öncə bəhanələr gətirərək məktəbə qəbul etməsələr, adını jurnala yazmasalar belə, tutduğu yoldan qarlı-çovğunlu havada da çəkilməyib, oxumaq eşqi ilə çırpınan qəlbinin səsi ilə hərəkət edib, balaca boyu, böyük ürəyi ilə inadından dönməyib, əzmkarlıq göstərərək məktəbə gedib. Evdə özündən 6 yaş böyük bacısının dəstəyi ilə nəinki yazıb-oxumağı, hətta Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndəki hekayətlərdən bir neçəsini əzbərdən öyrənib. Və bunu məktəb direktoruna söyləməyi ona çox güclü təsir edib, nəticədə məktəbə daxil olub:

**...Cırtdan kimi işığa — məktəbə yönəlmişəm**
**altı yaşım olmamış,**



**Sabahımdan qoparaq dünənimə süzülüb**
**on il — on damcı yağış...**

Nəsir Əhmədli elə həmin vaxt — "6 yaşı olmamış" həyata qalib gəlib, həyatın mübarizə meydanı olduğunu o vaxtdan dərk edib, mübarizəsini uğurla aparıb, gecə-gündüz çalışıb, oxuyub-öyrənib və məktəb illərində ən qabaqcıl şagirdlərdən olub. Riyaziyyat elminə böyük həvəs göstərsə də, tale öz sözünü deyib. Zakir Məmmədovun Həsən bəy Zərdabi haqqında əsəri onun gələcəyini təyin edib. O, jurnalist olmaq, Həsən bəyin yolu ilə getmək qərarını elə həmin andaca qəbul edib.

Həyatı enişli-yoxuşlu keçən müəllimimin Jurnalistika fakültəsinə gəlişi də asanlıqla olmayıb. Gənc yaşlarından qəzetlərdə imzası tanınsa da, orta məktəbi bitirəndə Jurnalistika fakültəsinə daxil olmaq üçün 2 il iş stajı tələb olunması ilə bağlı çıxarılan qərar, daha sonra vətənə xidmət onu yeddi il sonra arzusuna qovuşdurub:

...Füzuli baratından necə küsmüşdüsə də,
yeddi il attestatdan mən də elə küsmüşəm,
İstəmişəm ucalam, haqsızlıq yolub məni,
Molla Nəsrəddin demiş, quş həddinə düşmüşəm...

N.Əhmədlinin 3 illik əsgərlik həyatı da gənclərimiz üçün böyük bir örnəkdir. Sovet İttifaqı və Şərqi Almaniyada keçdiyi hərbi xidmət zamanı da prinsipiallıqdan çəkinməyib, bilik qazanmaqdan, həyat təcrübəsini artırmaqdan həzz alıb, rus və alman dillərini mükəmməl öyrənib.

Universitet illəri isə həyatının ən mənalı dönəmidir. Bu illər ona elm və biliklə yanaşı örnək tələbə, sədaqətli dost adlarını qazandırıb. Həyatında daim adını hörmətlə andığı insanlardan biri Jurnalistika fakültəsinin ağsaqqalı Şirməmməd Hüseynovdur. Ş.Hüseynovun sevimli tələbələrindən olan N.Əhmədli sonralar onun istəkli dostuna, dəstəyini, qayğısını hər zaman üzərində hiss etdiyi yaxınına çevrilib. Ş.Hüseynovun tövsiyəsi ilə "Sovet gerçəkliyi və xarici publisistikada onun inikası (Sovet Azərbaycanı haqqında 1966-1975-ci illərdə dərc olunmuş materiallar əsasında)" mövzusunda namizədlik, bir müddət sonra isə "Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə" mövzusunda

**Şükür ki, gec dəolsa, zəhmətim sayəsində**
**öz arzuma çatmışam,**
**Ülvi diləklərimi Vətənimin, xalqımın**
**diləyinə qatmışam...**

Əmək fəaliyyətinə doğulduğu kənddə kolxozçu kimi başlayıb, sonra V.Sturua adına Bakı Gəmi Təmiri Zavodunda işləyib. Universiteti bitirdikdə isə təyinatla Azərbaycan Televiziyasına göndərilib, bir müddət sonra Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının müdiri olub, hazırda isə jurnalistika fakültəsinin ən çox sevilən, dəyər verilən müəllimlərindən biri kimi gənc jurnalistlər yetişdirməkdədir...

Professor N.Əhmədlinin müəllifi olduğu "Səsimiz, sorağımız (Xarici publisistikada Azərbaycan mövzusu)", "Səslər içində (Azərbaycan radiosu ellər arası efirdə)", "Jurnalistin vizual nitq mədəniyyəti", "Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə", "Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində", "Jurnalistin nitq mədəniyyəti", "Korifeylərin portretləri", "Con Milton və onun "Areopagitika" əsəri" adlı dəyərli araşdırmaları jurnalistika fakültəsinin hər bir tələbəsinin stolüstü kitabları sırasına daxildir. "Ürəkdə bəslənən sevdaya şükür" adlı şeirlər kitabı da sevilə-sevilə oxunur. Çox saylı məqalə və monoqrafiyaların müəllifi olan professor bir neçə elmlər namizədi yetişdirib, elmlər doktorunun məsləhətçisi olub. Onun elmə bəxş etdiyi töhfələr bununla bitmir. Gərgin əməyi nəticəsində beynəlxalq radio yayımının jurnalistikanın bütün sahələrinə tətbiq edilə biləcək model-sxemini hazırlayıb, bu sahədə fəaliyyət göstərən 6 qanun aşkarlayıb. Onun əməyi daim qiymətləndirilib. Elə "Əməkdar jurnalist" adının verilməsi, bu günlərdə Ali Media Mükafatının birinci dərəcəsinə layiq görülməsi də bunun bariz nümunəsidir.

Nəsir Əhmədlinin həyata baxışı, bəlkə də, çoxlarından fərqlidir. Onun Vətəninə, millətinə, xalqının dəyərlərinə, saza, sözə bağlılığı hər an hiss olunur. Təsadüfi deyil ki, telefonunun zəngi — "Başsarıtel" havası da bunu özündə yaşadır...

Bəlkə də, çoxları onu nikbin, deyib-gülən, zarafat etməyi sevən, həyat eşqi yüksək birisi kimi tanıyırlar. Mən isə Nəsir Əhmədlidən həmişə çəkinmişəm... Nədənsə onun ağır yerişini, düşüncəli baxışlarını görəndə sanki daxilində hansısa qüvvə ilə çarpışdığını düşünüb, qəmi, kədəri hiss etmişəm... Və daim beynimdə suallar baş qaldırıb, heç kəslə paylaşmadığım, daxilimdə cavab axtarmağa çalışdığım suallar... Amma deyəsən, bir neçə ay öncə ustad müəllimin imzası ilə mətbuatda işıq üzü görmüş "Qardaşım Bəşirə" adlı şeiri mənim bir qisim suallarımı cavablandırdı:



**Ayrılıq — bir su içimi,**
**Yoxluğun didir içimi.**
**Susuz qalmış ağac kimi**
**Quruyuram yavaş-yavaş...**

Nəsir Əhmədli həmişə dünya ilə mübarizə aparıb, yazımda onun həyatı ilə bağlı qələmə aldığım kiçik epizodlar da bunu deməyə əsas verir. O, mübarizələrdən alnıaçıq, üzüağ çıxsa da, örnəkhəyat yaşasa da, onun da daxilində dünyanı tanımaq, bu dünyanın keçmişi, bu günü, gələcəyi, səması, günəşi, ayı, dəryası, dənizi, payızı, baharı, yayı, sakini, dərgahı, hikməti, savabı, günahı barədə suallara cavab axtarmaq marağı durur. "Bilinmir" adlı şeİrində də bu suallara cavab axtarır:

**"Başdan-başa" müəmmadır bu dünya,**
**Gizlisinə, agahına, bilinmir.**
**Çox şeyləri uzaqdadır, əl çatmır,**
**Əl çatanın izahınə, bilinmir.**
**...Bu dünyanı dərk eləmək — boş xülya,**
**Nəsir Dalğın duyammadı, kim duya?**
**Anlaşılmaz bir bazardır bu dünya,**
**Satanı kim, mətahı nə, bilinmir...**

Həyatda ən ali məqsədi dövlətə, dövlətçiliyə xidmətdir. Elə buna görə də Nəsir müəllim hamımızı bir yumruq kimi birləşməyə səsləyir... Biz isəNəsir müəllimin bu səsinə səs verir, yubileyi münasibətilə onu bir daha təbrik edir, ona can sağlığı, uzun ömür, qəlbindəki bütün istəklərin həyata keçməsini arzulayırıq...

**Anzulə ƏMİROVA**

# "Həmsədrləri dəyişib yerinə hansı ölkələri gətirək ki?"

"HƏMSƏDRLƏR BMT TƏHLÜKƏSİZLİK ŞURASININ ÜÇ DAİMİ ÜZVÜDÜR — ONLARIN YERİNƏ HANSI ÖLKƏLƏRİ GƏTİRMƏK OLAR Kİ, ERMƏNİSTANI ÖZ MÖVQEYİNDƏN ÇƏKİNDİRƏ BİLƏN ADDIMLAR ATSINLAR?"

**Müsahibimiz Milli Məclis (MM) sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı (PA) nümayəndə heyətinin rəhbəri Bahar Muradovadır.**

***— Bahar xanım, Azərbaycan zabiti Ramil Səfərovun ekstradisiyası və əfvi bağlı ilə məsələ üstündən bir ay keçməsinə baxmayaraq, yenə gündəmdən düşmür. Məsələn, bu günlərdə ABŞ dövlət katibi Hillari Klinton yenidən bu məsələyə öz mövqeyini ortaya qoydu. Eyni zamanda, bir müddət öncə işində iştirak etdiyiniz ATƏT PA-nın payız sessiyası-konfransında bu məsələyə qayıdıldı...***



— ATƏT PA-nın Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən bu dəfəki payız sessiyasında əsasən dözümlülük, multikulturalizm, dünyada davam edən iqtisadi tənəzzül, maliyyə krizisi, o cümlədən, idarəetmədə kütləvi informasiya vasitələrinin rolu kimi məsələlər müzakirə olunurdu. Əlbəttə ki, bu kontekstdə ən müxtəlif çıxışlarda ən müxtəlif fikirlər səslənirdi. Ancaq sessiyada Azərbaycan və yaxud da Ramil Səfərovun ekstradisiyasına münasibət haqqında, xüsusi bir məsələ yox idi. Hərçənd ora getməmişdən əvvəl bizim məlumatlarımız var idi ki, Ermənistan tərəfi bu məsələni payız sessiyasının gündəliyinə daxil olunması və bu alınmasa, öz çıxışlarının ətrafında disskusiya açmaq üçün ayrı-ayrı ölkələrlə, ATƏT rəsmiləri ilə müəyyən işlər aparırlar, odur ki, biz də qabaqlayıcı tədbirlərimizi görmüşdük.

Bu məsələnin orada nə gündəliyə daxil edilməsinə, nə də geniş müzakirəsinə imkan verildi. Azərbaycan nümayəndə heyətinin səyləri və bir də ATƏT PA rəsmilərinin prinsipial mövqeləri nəticəsində bu alınmadı. Ona görə beynəlxalq təşkilatlarda baş verən neqativ hadisələr, Azərbaycana yönəlmiş qaralama kampaniyası ATƏT PA-da alınmadı. Ramil Səfərovun ekstradisiyası haqqında Ermənistan nümayəndəsinin çox qısa vaxt ərzində — iki dəqiqəlik çıxışında — özü də ermənisayaq toxunması, özünün çıxışına, yəni, onun gözləmədiyi, gözlədiyinə adekvat olmayan neqativ rəylər ortaya qoydu. Təbii ki, bu çıxışda səsləndirilən fikirlərə də həm hüquqi, həm siyasi, həm də digər tərəfdən bütün mənalarda cavablar verildi və sessiya iştirakçılarının hər hansı birində bu məsələ ilə əlaqədar qaranlıq məqam qalmadı.

Çünki bu, iki dövlət arasında həyata keçirilmiş bir hüquqi aktdır, bu, beynəlxalq konvensiyaya və onun müvafiq maddələrinə , o cümlədən, Azərbaycan qanunvericiliyə uyğun şəkildə həyata keçirilib. Bunu kimin qəbul edib-etməməsi artıq onun öz işidir. Bu, artıq bitmiş bir işdir, bu iş arxada qaldı, biz irəliyə baxırıq və bu faktı özündən də ermənilərin danışıqlar prosesindəki qeyri-konstruktiv mövqeyini pərdələmək məqsədi ilə və yaxud da danışıqlar prosesindən çıxmaq istiqamətində göstərdiyi səylər üçün istifadə etməsi onlara bir səmərə verdi.

Digər təşkilatlardakı müzakirələr də, düşünürəm ki, bir səmərə vermir. Çünki hər kəs ümumən münaqişənin nədən ibarət, vəziyyətin indi nə yerdə olduğunu və onsuz da çoxdan dayanmış danışıqlar prosesinin dalana dirənməsində bu məsələnin rol oynamadığını dərk edirlər. Sadəcə, bir hay-küy yaratmaq məqsədi daşıyırdı, bu hay-küy də alınmadı.

***— Danışıqlar prosesinin dayanmasından söz düşmüşkən, məlum olduğu kimi, bunu ilk dəfə bir müddət bundan əvvəl xarici işlər nazirinin müavini Araz Əzimov açıqladı. Sizcə, danışıqlar prosesinin bu məqamda dayanması nəylə bağlıdır? Bu, prosesləri arzuolunmaz məcraya apara bilərmi? Yəni, yenidən hərb variantına apara bilərmi və yaxud ATƏT-in Minsk qrupundan artıq imtina etmək, onu başqa bir formatla əvəz etmək məqamı deyilmi?***

— Bu suallar cəmiyyətdə çox səslənib, biz də dəfələrlə buna cavablar vermişik. Danışıqlar prosesinin dayanmasının yeganə baiskarı, səbəbkarı Ermənistan tərəfidir və son Kazan görüşündən sonra onların tutduğu qeyri-konstruktiv mövqe məsələni bu həddə gətirib çatdırdı. Baxmayaraq ki, həmsədrlər dəfələrlə səfər ediblər, müxtəlif bəyanatlar səsləndiriblər, faktiki olaraq, bu dayanılan yerdən irəliyə hansısa bir addım atılmayıb və Ermənistan prezidentinin "Dağlıq Qarabağ heç zaman Azərbaycanın tərkibində olmayacaq və onun müstəqilliyi təmin olunacaq" fikrinin özü onların danışıqlarda qeyri-səmimi olduqlarını və bu danışıqlarda danışıqlar xətrinə vaxtı uzatmaq və status-kvonu qoruyub saxlamaq cəhdi ilə iştirak etdiklərini bir daha göstərdilər.

Bu, qəbuledilməzdir, status-kvo dəyişilməlidir, söyləyəndə də heç kimin ağlına o fikir gələ bilməz ki, Azərbaycan hansı addımı atmalıdır. İlk ağıla gələn odur ki, erməni qoşunları Azərbaycan ərazisindən çıxmalıdır və qaçqın-köçkünlər öz ev-eşiyinə qayıtmalıdır, icmaların təhlükəsiz yaşayışı təmin olunmalıdır, sülhməramlı qüvvələr yerləşdirilməlidir və bu, cənab prezidentin cəbhə bölgəsində son çıxışında da bir daha öz əksini tapdı.

Bu, Azərbaycanın qətiyyətli mövqeyidir, bütün danışıqlar vaxtı bu mövqe ortaya qoyulur və danışıqlar prosesinin də bu yerə gəlib çıxmasının günahkarı biz deyilik. Günahkar erməni tərəfidir və onlar da bunu bildiklərindən hər bir bəhanədən istifadə etməyə çalışırlar ki, diqqəti əsas məsələdən, əsas mahiyyətdən yayındırsınlar. Münaqişə nəticəsində yaranmış ayrı-ayrı elementlər müzakirə predmeti olsun və bundan da Azərbaycanı qaralama kampaniyasında istifadə etsinlər.

***— Bahar xanım, konkret olaraq payız sessiyasında ATƏT PA-nın rəsmiləri qarşısında danışıqların məhz Ermənistanın qeyri-konstruktivliyi yönündə dayanması məsələsini qaldırdınızmı?***

— Mən onların hər ikisi ilə də ayrı-ayrılıqda görüşümdə bu məsələyə toxundum. Eyni zamanda bilirsiniz ki, mən Azərbaycan parlamentinin sədri cənab Oqtay Əsədovun ATƏT PA-nın prezidenti cənab Rikkardo Milyoriyə dəvət məktubunu ona çatdırdım rəsmi dəvət məktubu ona təqdim olundu və eyni zamanda, 2014-cü ildə Azərbaycanda ATƏT-in illik yay sessiyasının keçirilməsi ilə bağlı artıq Parlament Assambleyasının müvafiq qərarı var və bu tədbirin keçirilməsinə hazırlıq məsələləri də bu görüşdə müzakirə oluna bilər. Biz Milyori ilə həm bu məsələlər ətrafında müzakirələr apardıq, həm də Dağlıq Qarabağ məsələsi və konkret olaraq son dövrlərin hadisələri ilə bağlı narahatlığımızı onun diqqətinə çatdırdıq.

Yəni, o özü də bu məsələnin mahiyyətini çox gözəl bilir. Çünki hələ sədr olmamışdan — prezident seçilməmişdən əvvəl İtaliyanın nümayəndə heyətinin rəhbəri kimi bütün fəaliyyəti zamanı bu məsələyə və digər həlli uzadılmış münaqişələrə çox diqqət göstərir, bu məsələləri öyrənirdi. Odur ki, münaqişənin bütün mahiyyəti, kimin hansı mövqedə olması ona bəllidir.

Bildiyiniz kimi, ötən il Xorvatiyada keçirilən xüsusi müzakirələr zamanı dinləmələr oldu, həmsədrlər özü də orada iştirak etdilər, ilk dəfə olaraq münaqişənin tarixində hesabat verdilər və bizim söylədiklərimiz nəticəsində yox, daha dəqiqi — onların söylədikləri , hesabatları nəticəsində bəlli oldu ki, işğalçı tərəf Ermənistan tərəfidir. Azərbaycan torpaqları təcavüzə məruz qalıb, bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın və köçkün vəziyyətində yaşayır. Münaqişənin həlli prosesində dəfələrlə biz variantlar irəli sürülməsinə baxmayaraq, hər dəfə Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində bu danışıqlar alınmayıb. Hətta bəzi hallarda həll variantına müəyyən yaxınlıq hiss olunduğu təqdirdə belə, Ermənistanda baş verən hadisələr nəticəsində danışıqlar prosesi pozulub, yenidən sıfırdan başlanmalı olub. Yəni, həm Praqa posesi, "Madrid prinsipləri" əsasında gedən danışıqların hamısının pozulmasında Ermənistan tərəfinin günahkar olması hər kəsə bəllidir.

Bunu biz həm çıxışlarımızda söyləyirik, həm ora təqdim etdiyimiz materiallarımızda qeyd edirik, həm də onlar özləri bu məsələni öyrəndiyi, Azərbaycana və Ermənistana səfərləri zamanı və elə neytral mövqedən bu münaqişəni öyrəndikləri zaman məsələnin nə yerdə olduğunu bilirlər. Və hər kəs də status-kvonun qəbulolunmaz və məsələnin dəyişilməsinin vacib olduğunu vurğulayır. Ən əsas burada humanitar faciə məsələsidir. Azərbaycan vətəndaşları, ümumiyyətlə, təkcə Azərbaycan millətindən olan yox, elə erməni millətindən olan vətəndaşların dinc yaşamaq hüququ pozulub. Dağlıq Qarabağda ermənilərin yaşayışı məgər belə gözəldir? Mən heç də düşünmürəm ki, onlar istədiklərini əldə ediblər. Onlar erməni xalqı və Dağlıq Qarabağ ermənilər üçün məhz bunu istəyirdilər?

Nə Ermənistanın özündəki , nə də Dağlıq Qarabağdakı vəziyyət bu günə qədərki bütün istiqamətlərdə aparılan erməni mübarizəsində, onların havadarlarının mübarizəsində olan heçliyini, puçluğunu sübut edir. Bu insan naminə deyil, bu millət və dövlət naminə deyil. Bu, insanın yaşayışı təhlükəsi və sülh şəraitində yaşayışı üçün deyil. Sadəcə, bu, bir qrup siyasətbazrının öz maraqlarını və erməni maraqlarını əllərində bəhanə edərək, müxtəlif hədəflərə xidmət etməsinin nəticəsidir ki, ortadadır. Ona görə də bu hər kəsə bəllidir və biz də öz çıxışlarımızda bir daha bunları söylədik. Çünki Ermənistan nümayəndə heyətinin rəhbəri iki dəfə — həm birinci gün, həm də ikinci gün öz çıxışında söyləyəndəki ki, Xocalıda biz — yəni, ermənilər və sovet Rusiya ordusunun kiçik bir hissəsi Xocalını mühasirəyə alarkən, Xocalı dinc əhalisinin çıxması üçün koridor qoymuşduq, amma siz baxın azərbaycanlılar neylədilər, özləri öz vətəndaşlarını güllələdirlər, bu, artıq ermənilərin haraya gəlib çıxdıqlarının göstəricisidir.

Onların törətdikləri əməllər və cəzasız qaldıqları gözlərini o qədər örtüb ki, onlar açıq şəkildə Xocalını mühasirəyə aldıqlarını və xüsusi hissənin köməyi ilə mühasirəyə aldıqlarını, dinc insanların çıxması üçün koridor qoyduqlarını dilə gətirirlər. Bu, məsələnin ikinci tərəfidir ki, kimsə bu sayıqlamaya inanmır ki, Azərbaycan tərəfi özü orada öz dinc əhalisini güllələsin, amma soruşula bilər və sual olunur ki, siz nəyə görə Xocalını mühasirəyə almışdınız? Və nəyə görə Xocalının dins sakinləri bir gecənin içərisində — qarlı qış gecəsində Xocalını tərk etməli idi və siz onlar üçün koridor qurmuşdunuz?

Yəni, artıq deməyə söz qalmır. Onlar Azərbaycanı hər şeydə ittiham edə bilərlər onlar, amma Azərbaycanı durub bu məsələdə ittiham etmək çoxlarında gülüş doğurur və qeyd edim ki, onlar çox layiqli cavablarını da aldı, hələ onlar öz çıxışlarında yol verdikləri səhvin cəzasını yəqin ki, Ermənistanda alacaqlar, ölkənin rəhbərliyi tərəfindən. Onu demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar artıq nə ATƏT-də, nə digər beynəlxalq təşkilatda yeni söz deməyə ehtiyac var, hər şey hər kəsə bəllidir...

***— ATƏT-in Minsk qrupunun formatının dəyişilməsi məsələsi barədə nə deyərdiniz?***

— Şəxsən mən özüm bütövlükdə bu məsələnin tədqiqatçısıyam. Bilirsiniz ki, mən "Dağlıq Qarabağ məsələsinin həllində ATƏT-in rolu məsələsi" mövzusunu işləmişəm və siyasi elmlər üzrə fəlsəfə doktoru adını da məhz buna görə almışam. Yəni, bu məsələnin bütün mahiyyəti, tarixi kökləri, bugünkü vəziyyəti mənə bəllidir və neçə ildir ATƏT-də bu prosesdə iştirak etdiyim üçün bu sahədə formatın dəyişməsinin məsələyə hansısa köklü dəyişikliyi göstərəcəyin düşünmürəm. Həmsədrlər kimlərdir? BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü. Dünyanın siyasətini yönləndirən, istiqamətinin dəyişən, dünya mizan-tərəzisinin nizamını düzən ölkələr. İndi belə olan halda, bu ölkələri dəyişib, yerinə hansı ölkələri gətirmək olar ki, onlar daha təsirli, necə deyərlər, Ermənistanı öz mövqeyindən çəkindirə bilən addımlar atsınlar? Hesab edirəm ki, format burada rol oynamır. Sadəcə, siyasi iradə lazımdır. Bu məsələyə təsir göstərə bilən güclər, doğrudan da, Cənubi Qafqasda sülhün və təhlükəsizliyin əldə olunmasına səmimi cəhətdən istəməlidirlər və bunu həyata keçirmək üçün konkret əməli tədbirlər görməlidirlər. İstədiklərini dediklərində söyləyirlər, status-kvonun dəyişilməsinin vacib olduğunu vurğulayırlar, amma bundan irəli gələn konkret addımları nədənsə, atmağa tələsmirlər. Düşünürəm ki, keçən hər gün münaqişənin uzanmasına xidmət edir, eyni zamanda, tərəflərin öz mövqeyindən geri çəkilməməsi, daha doğrusu, bir tərəfin — Ermənistan tərəfin öz konstruktiv mövqeyindən geri çəkilməməsi, əlbəttə, digər risqləri artırır. Keçən hər gün, hər an, hər dəqiqə digər risqləri artırır.

Onsuz da dünyamız narahatdır, onsuz da bölgəmiz narahatdır. Yəni, bunun da üzərinə bir problem əlavə etməyə gərək biz imkan verməyək, heç kim buna imkan verməsin, bütün səylər ona yönəlməlidir ki, məsələ sülh danışıqları yolu ilə başa çatsın. Yox, əgər bu baş verməyəcəksə, Azərbaycan hüququnu özündə saxlayır.

**Kamil HƏMZƏOĞLU**

# Araz Əzimov ATƏT-in Daimi Şurasının iclasında çıxış edib

Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov Avstriyaya səfəri çərçivəsində Vyanada 56 üzv dövlətin təmsil olunduğu ATƏT-in Daimi Şurasının iclasında çıxış edib. Nazir müavini ATƏT-ə üzv dövlətlərin səfirlərini təşkilatın ümumavropa təhlükəsizlik arxitekturasında roluna dair və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Azərbaycanın gözləntiləri barədə fikirləri bölüşüb. Nazir müavini BMT, Avropa Şurası, NATO, İƏT və Qoşulmama Hərəkatı kimi nüfuzlu beynəlxalq təşkilatların münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinə dair öz prinsipial mövqelərini izhar etdikləri fonda ATƏT daxilində münaqişəyə dair diqqətin getdikcə zəiflədiyini və Azərbaycanın belə bir vəziyyətdən narahat olduğunu bildirib. A.Əzimov ATƏT-ə üzv dövlətləri münaqişəni sülh yolu ilə həlli və ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəklədikləri barədə ümumi bəyanatlar verməklə kifayətlənməməyə çağırıb. Nazir müavini Minsk qrupunun formatını yenidən canlandırmağı təklif edərək bu



qurumun üzvlərinin, məsələn, İtaliya, Almaniya, Türkiyə, İsveçrə kimi dövlətlərin Minsk qrupunun həmsədrlərinə vasitəçilik səylərinə töhfə verməyə həvəsləndirib. Azərbaycanlı diplomat nizamlanma prosesinə dair dövlətimizin yanaşmasını bölüşərək münaqişənin həllinin mərhələli olmasının, Ermənistanın qoşunlarının işğal olunmuş ərazilərimizdən çıxarılmasının, məcburi köçkün azərbaycanlılara Dağlıq Qarabağa və ətrafdakı bölgələrə geri qayıtmaq üçün müvafiq şəraitin yaradılmasının və kommunikasiyaların regionda bütün tərəflər üçün açıq olmasının vacibliyini vurğulayıb: "Yalnız bu kimi şərtlər təmin olunduqdan sonra regionda erməni və azərbaycanlı icmalarının qonşuluq və əməkdaşlıqda birgə yaşamaları əsasında Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində statusunun müəyyən olunması üçün obyektiv və normal şərait yarana bilər.

Baza prinsipləri üzrə 2004-cü ildən aparılan danışıqlar Ermənistanın destruktiv mövqeyi səbəbindən nəticə verməyib. Nazir müavini tərəflərin və vasitəçilərin səylərini münaqişənin nizamlanmasına praktiki səviyyədə xidmət göstərəcək "Yol xəritəsinin" hazırlanmasına istiqamətləndirməyi təklif edib. Nazir müavini Dağlıq Qarabağın azərbaycanlı icması ilə erməni icmasının görüşlərinə dair etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinin vacibliyinə toxunub, Azərbaycanın münaqişənin sülh yolu ilə həllinə sadiq qaldığını və bölgədə sülhün tezliklə bərqərar olmasında ən maraqlı dövlət olduğunu bildirib.

**S.MÜRVƏTQIZI**

# Türkiyənin Cümhuriyyət bayramı münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib

Türkiyə Respublikasının yaradılmasının 89-cu ildönümü münasibətilə qardaş ölkənin Azərbaycandakı səfirliyi "Gülüstan" sarayında rəsmi qəbul təşkil edib. Hər iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlanan tədbirdə səfir İsmail Alper Coşkun qonaqları salamlayaraq ulu öndər Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyənin istiqlal mübarizəsindən və ölkəsinin keçdiyi inkişaf yolundan danışıb: "Türkiyə öz dinamik inkişaf yolunda siyasi, hərbi, iqtisadi, eləcə də demokratiya və insan haqları sahələrində böyük addımlar ataraq regionda və dünyada öz mövqeyini möhkəmləndirib". İkitərəfli əlaqələrin inkişafında dövlət və hökumət başçılarının rolunu xüsusi vurğulayan İsmail Alper Coşkun Azərbaycan və Türkiyə rəhbərlərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanmış çoxsaylı sənədlər, eləcə də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının fəaliyyəti dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərini ən yüksək səviyyədə davam etdirməyə imkan yaratdığını bildirib: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tibilisi-Qars layihələri hər iki ölkə arasında durmadan inkişaf edən qardaşlıq münasibətlərinə xidmət edir. Ümummilli lider Heydər Əliyev ölkələrimiz arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsində misilsiz rol oynayıb. Bu gün Türkiyə və Azərbaycan sıx birliyə nail olublar, ölkələrimiz iqtisadi cəhətdən inkişaf etdikcə gələcəyə daha inamla addımlayırlar".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan səfir Azərbaycan ərazilərinin tezliklə işğaldan azad olunmasının zəruriliyini vurğulayıb: "Bu məsələ təkcə Azərbaycanın deyil, bütün türk dünyasının problemidir və Türkiyə hər zaman qardaş Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyəcək".

Mərasimdə ölkə başçısı İlham Əliyevin adından əlamətdar gün münasibətilə mərasim iştirakçılarını, bütün Türkiyə xalqını təbrik edən baş nazirin müavini Abid Şərifov qardaş ölkəyə firavanlıq və uğurlar arzulayıb. İki ölkə arasındakı münasibətlərdən danışan Baş nazirin müavini elm, təhsil, iqtisadiyyat, mədəniyyət və hərbi sahələrdə sıx əməkdaşlığın olduğunu deyib: "Ulu öndərlərin — Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları qardaş ölkələrimizin münasibətlərində hər zaman əsas prinsip olub". A. Şərifov iki ölkə arasında əlaqələr möhkəm təməllərə söykənərək bütün sahələrdə uğurla inkişaf etdiyini deyib: "Ölkələrimiz beynəlxalq aləmdə vahid mövqedən çıxış edərək bölgədə sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün birgə fəaliyyət göstərirlər. Əməkdaşlığımızın sürətli inkişafı ticarət dövriyyəsinin artmasına şərait yaradır. Ölkələrimizin birgə təşəbbüsü ilə Transsanadolu təbii qaz boru kəməri (TANAP) layihəsinin həyata keçirilməsinə başlanılmışdır. Layihənin icrası Azərbaycan qazının Türkiyə vasitəsilə Avropa ölkələrinə nəql edilməsinə imkan yaradacaqdır".

Baş nazirin müavini Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş etdirdiyi ədalətli mövqeyi yüksək qiymətləndirib.

**S.MÜRVƏTQIZI**

# Ombudsman BMT-nin müşaviri ilə görüşüb

İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin insan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikovu qəbul edib. Ombudsman Aparatının mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Ali Komissarlığın Azərbaycan nümayəndəliyinin rəhbəri Kamran Bağırov da iştirak edib.

E.Süleymanova Ombudsman təsisatının insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığa önəm verdiyini, nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən BMT-nin müxtəlif sahələr üzrə ixtisaslaşmış mühüm qurumları, həmçinin İnsan Hüquqları üzrə Ali Komissarlıqla, bu qurumun regional ofisi ilə də səmərəli əməkdaşlıq əlaqələrinin davam etdirildiyini diqqətə çatdırıb. Müvəkkil ölkə Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş və uğurla icra olunan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda (MFP) müasir dövrün prioritetlərinə uyğun olaraq, insan hüquqlarının təmini, müdafiəsi və təbliği istiqamətində mühüm vəzifələrin nəzərdə tutulduğunu, bu sənədin həyata keçirilməsinin əlaqələndirilməsi üzrə İşçi qrupunun rəhbəri olaraq, Ombudsmanın gördüyü işlər barədə məlumat verib. Proqramda irəli sürülmüş vəzifələrin və onların icra mexanizmlərinin müzakirəsi məqsədilə dövlət qurumları və vətəndaş cəmiyyəti, insan hüquqları sahəsində çalışan QHT-lərin nümayəndələri ilə məsləhətləşmələrin, regionlarda ictimai dinləmələrin keçirildiyi diqqətə çatdırılıb.

Əlillərin hüquqları haqqında Konvensiyanın müvafiq maddəsində nəzərdə tutulan müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsinin Müvəkkilə tövsiyə edildiyi, həmin Konvensiyanın həyata keçirilməsi üzrə monitorinqlərin aparılmasının əhəmiyyəti vurğulanıb. E.Süleymanova insan hüquqlarının müdafiəsi, həmçinin əhalinin zəif qruplarının, o cümlədən əlillərin hüquqları üzrə birgə maarifləndirmə tədbirləri, dəyirmi masalar, treninq-seminar keçirilməsinin zəruriliyini diqqətə çatdırıb.

E.Süleymanova Azərbaycan Ombudsmanının Universal Dövri İcmal (UDİ) üzrə fəaliyyəti ilə bağlı V.Şkolnikovun sualını cavablandıraraq qeyd edib ki, Müvəkkil BMT-nin İnsan Hüquqları Şurasının (İHŞ) müvafiq qətnaməsinə uyğun olaraq, UDİ mexanizmi üzrə əlavə məruzə hazırlayıb, bu məruzə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına göndərilib. Bu sahədə müstəqil monitorinq işinin Müvəkkil tərəfindən aparıldığı bildirilib: "UDİ üzrə dövlətin hesabatının yüksək səviyyədə hazırlanması məqsədilə, eyni zamanda həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyəti nümayəndələrinin İcmal haqqında dolğun informasiyaya malik olması üçün Ombudsman beynəlxalq ekspertlərin iştirakı ilə maarifləndirmə tədbirləri keçirib". UDİ prosesi ilə bağlı verilmiş tövsiyələrin icrası vəziyyətinin monitorinqi aparılıb, vətəndaş cəmiyyəti təsisatlarının bu prosesdə iştirak etdiyi, insan hüquqları sahəsində QHT-lərin alternativ hesabatlar hazırladığı, Ombudsman Aparatında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Bakı ofisi ilə birgə təşkil olunmuş UDİ prosesi çərçivəsində QHT-lər tərəfindən alternativ hesabatın hazırlanmasına həsr edilmiş ikigünlük təlim keçirildiyi bildirilib, bu istiqamətdə vətəndaş cəmiyyəti ilə əməkdaşlığın zəruriliyini önə çəkib. BMT rəsmisi UPR üzrə hesabatın dinləniləcəyi sessiyada Azərbaycan Ombudsmanının da çıxışının mühüm əhəmiyyət kəsb edəcəyini diqqətə çatdırıb.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Bakı ofisinin rəhbəri Kamran Bağırov Ombudsmanın UDİ prosesində fəal mövqeyini, həmçinin Müvəkkilin regional mərkəzlərinin BMT-nin bölgələrdə keçirdiyi təlimlərdə mütəşəkkil iştirak etdiyini, eyni zamanda bu istiqamətdə geniş maarifləndirmə işi apardığını vurğulayıb, təmsil etdiyi qurumun yaxın vaxtlarda regionlarda Ombudsman Aparatı ilə birgə insan hüquqları sahəsində maarifləndirici treninqlər təşkil edəcəyini qeyd edib. Ombudsman BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının prioritetlərinə uyğun olaraq, birgə regional seminarların keçirilməsini, insan hüquqları sahəsində tanınmış ekspertlərin, o cümlədən UPR Watch təşkilatının səriştəli mütəxəssislərinin dəvət olunmasını, mərhələli layihələrin həyata keçirilməsini, birgə hüquqi nəşrlərin çap edilməsini təklif edib. V.Şkolnikov Müvəkkilin insan hüquqları sahəsində səmərəli fəaliyyətini təqdir edərək Ombudsman təsisatı ilə əməkdaşlığa önəm verdiyini və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən işgüzar əlaqələrin davam etdiriləcəyini və təsisata dəstək vermək niyyətində olduğunu vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**S.MÜRVƏTQIZI**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə

# Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Suraxanı rayon İcra Hakimiyyəti ilə birgə konfrans keçirib








Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Suraxanı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə noyabrın 1-də "Yerli icra Hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın inkişaf etdirilməsi" mövzusunda konfrans keçirilib. Yığıncaqda Suraxanı rayon ictimaiyyətinin nümayəndələri və 30-a qədər aparıcı kütləvi informasiya vasitəsinin rəhbərləri iştirak ediblər.

Tədbirdən əvvəl Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov media nümayəndələrini son illər rayonda görülən abadlıq- quruculuq işləri ilə yaxından tanış edib. Bu məqsədlə tədbir iştirakçıları rayonda fəaliyyət göstərən 268 saylı körpələr evi-uşaq bağçasında, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzində, 327 saylı tam orta məktəbdə və "Atəşgah Məbədi" Dövlət Tarixi-Memarlıq Qoruğunda olublar. Konfrans iştirakçılarına adları çəkilən müəssisələrin fəaliyyəti barədə geniş məlumat verilib. Mərasimə dəvət edilmiş media təmsilçiləri rayonda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstəsi qoyublar. Tədbirdə Suraxanı rayonu ilə bağlı film də nümayiş etdirilib. Bundan sonra konfrans geniş heyətlə rayon icra hakimiyyətində davam edib.

Yığıncaq iştirakçılarını salamlayan Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tədbir iştirakçılarına konfransın mahiyyəti barədə məlumat verib. Bu cür tədbirlərin ənənə halını aldığını söyləyən icra başçısı artıq ötən il rayonda belə bir konfransın keçirildiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxışında Fondun fəaliyyətindən söz açaraq bildirib ki, ötən müddətdə kütləvi informasiya vasitələrinin maddi-texniki problemlərinin həllinə və inkişafına, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, sosial müdafiəsinin möhkəmləndirilməsinə, habelə beynəlxalq təcrübəni mənimsəmələrinə xidmət edən çoxsaylı layihələr icra edilib.

Azərbaycan mətbuatının müstəqillik dövründə böyük uğurlar qazandığını tədbir iştirakçılarının nəzərinə çatdıran V.Səfərli bu sahədə Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olduğunu bildirib. Dövlətin mətbuata müntəzəm olaraq qayğı göstərdiyini söyləyən V.Səfərli 2009-cu il aprelin 3-də Prezident İlham Əliyevin sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldığını deyib. Jurnalist peşəkarlığının artırılması istiqamətində görülən işlərdən danışan Vüqar Səfərli qeyd etdi ki, Fondun son illərdə həyata keçirdiyi mühüm layihələrdən biri də kütləvi informasiya vasitələri ilə yerli icra hakimiyyəti orqanları arasında əlaqələrin inkişaf etdirilməsidir. İcraçı direktor belə tədbirlərin mətbuat nümayəndələri ilə yerli icra strukturları arasında sivil əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə təkan verdiyini yığıncaq iştirakçılarının diqqətinə çatdırıb.

2012-ci ilin 9 ayı ərzində Suraxanı rayonunda görülmüş işlər barədə qısa məlumat verən Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov öz növbəsində Fondun təşəbbüsü ilə keçirilən konfransın məmurlarla jurnalistlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığını deyib. Vurğulayıb ki, rəhbərlik etdiyi rayon Bakının ən böyük rayonlarından biridir. Onun sözlərinə görə son illər ölkədəki dinamik sosial-iqtisadi inkişaf Suraxanı rayonundan da yan keçməyib: "Cari ilin 9 ayı ərzində Suraxanı rayonunda Dövlət və yerli Proqramların icrası uğurla davam edib. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən Suraxanı rayonunda nəzərdə tutulmuş 102 tədbirin 31-i tam icra olunmuşdur, 47-nin icrasına başlanmışdır. Dövlət Proqramının icrası ilə əlaqədar 2012-ci ilin 9 ayı ərzində 295,3 min p.m qaz, 16, min p.m su, 4,5 min p.m kanalizasiya xətləri çəkilmişdir. Hövsan- Binə- Dədə Qorqud- Bahar yaşayış sahələrinin ətrafındakı 300 hektar ərazidə suvarma sistemi qurulmuş və ərazi yaşıllaşdırılmışdır. Bu dövr ərzində 6 məktəb əsaslı təmir edilmiş, 2 məktəb üçün 36 sinif otağı tikilmişdir. 5 körpələr evi-uşaq bağçası əsaslı təmir edilmiş, 2 səhiyyə müəssisəsində təmir işləri davam etdirilir". İlqar Abbasovun sözlərinə görə bu il Hövsan qəsəbəsində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 81 mənzilli 9 mərtəbəli sayca 2-ci yaşayış binası inşa edilib: "Rayonda su-kanalizasiya sisteminin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Rayon əhalisinin qaz və elektrik təchizatı yaxşılaşdırılıb. Poçt və rabitə xidməti sahəsində problemlər aradan qaldırılıb. Səhiyyə və Təhsil sahəsində də irəliləyişlər var. Əhalinin işlə təminatı da yüksəlib. Sakinlərin istirahət etməsi məqsədi ilə rayonda bir neçə park salınıb ".

Tədbirdə çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov son illər Suraxanı rayonunda böyük abadlıq işlərinin aparıldığını söyləyib: "Bu gün biz rayonu gəzərkən böyük quruculuq işlərinin görüldüyünün şahidi olduq. Həqiqətən son illər Suraxanı rayonunun mənzərəsi dəyişib. Bütün bunlar göz qabağındadır". Əflatun Amaşov milli jurnalistikamızın cəmiyyətin tərəqqisinə verdiyi sanballı töhfələrdən də söz açıb. O həmçinin, ölkə həyatının ən müxtəlif sahələrində həyata keçirilən islahatların cəmiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında, habelə demokratik proseslərin inkişafında ölkə mətbuatının xidmətlərinin böyük olduğunu deyib.

Daha sonra dialoq və diskussiya şəraitində davam edən tədbirdə qarşılıqlı maraq doğuran məsələlərə aydınlıq gətirilib. "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid və digər iştirakçılar öz çıxışlarında icra strukturları ilə kütləvi informasiya vasitələri arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından belə tədbirlərin əhəmiyyətini vurğulayıblar. Konfransda kütləvi informasiya vasitələri ilə yerli icra strukturları arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı təkliflər səsləndirilib.

İcraçı direktor Vüqar Səfərli Fondun Suraxanı rayon İcra Hakimiyyəti ilə birgə "Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və prespektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi keçirəcəyini bəyan edib və belə bir konfransın keçirilməsinə verdiyi dəstəyə görə rayon rəhbərliyinə minnətdarlığını bildirib.

Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov sonda tədbirin jurnalistlərlə icra strukturları nümayəndələri arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli olduğunu önə çəkərək faydalı təşəbbüsə görə Fondun icraçı direktoruna və aparıcı kütləvi informasiya vasitələrinin rəhbərlərinə öz təşəkkürünü bildirib.

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Kənd təsərrüfatı işçilərinin peşə bayramı qeyd edilib

## *İSMƏT ABASOV:* "2012-Cİ İL AQRAR SAHƏ ÜÇÜN UĞURLU OLUB"

Dünən Kənd Təsərrüfatı Nazirliyində "1 noyabr kənd təsərrüfatı işçilərinin peşə bayramı"na həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı naziri İsmət Abasov bütün kənd əməkçilərini "1 noyabr kənd təsərrüfatı işçilərinin peşə bayramı" münasibətilə təbrik edərək, onlara çətin və şərəfli işlərində uğurlar diləyib. Nazir kənd təsərrüfatı işçilərinin əməyinə yüksək qiymət verdiyinə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirərək, dövlətin hər zaman aqrar sahəyə diqqət və qayğı göstərdiyi deyib: "2012-ci il aqrar sahə üçün uğurlu olub".

İ.Abasov əldə olunan uğurlar və nailiyyətlər barədə toplantı iştirakçılarına məlumat verib.

Tədbirdə Azərbaycan Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyasının sədri Tofiq Quliyev, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar islahatlar, kənd ərazilərinin və sahibkarlığın inkişafı şöbəsinin müdiri İslam İbrahimov, Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəisi Məmmədəli Dünyamalıyev, Aqrar Elm Mərkəzinin birinci müavini Eldar Kosayev çıxış ediblər.

Daha sonra jurnalistlərin suallarını cavablandıran İ.Abasov bildirib ki, hazırda Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Nazirlər Kabineti kənd təsərrüfatı istehsal-



çılarına veriləcək subsidiyaların yeni mexanizmi üzərində işləyir. Onun sözlərinə görə, subsidiyalaşma mexanizminin dəyişdirilməsi dövlət başçısının tapşırığı ilə həyata keçirilir və onların effektivliyinin artırılması məqsədi daşıyır: "Dövlət başçısı bildirib ki, subsidiyalar mexanizminin dəyişdirilməsində məqsəd onların azaldılması deyil, əksinə onların məbləği artırıla da bilər. Amma subsidiyalar daha effektiv istifadə olunmalıdır".

Nazir həmçinin qeyd edib ki, bu ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanın kənd təsərrüfatı sektorunda istehsalın artım tempi 6,3 faiz olub. Onun fikrincə, bu il Azərbaycanda 2,763 milyon ton taxıl tədarük edilib: "Bundan 1,844 milyon tonu ərzaq buğdası təşkil edib. Bu il məhsuldarlıq da ötən ilə nisbətən daha yüksək olub. Belə ki, bu il taxılda məhsuldarlıq 1,6 faiz, buğda istehsalında 1,7 faiz artım qeydə alınıb".

İ.Abasov bildirib ki, gələcəkdə yeni fermer təsərrüfatlarının yaradılması və aqrar sahədə daha müasir texnologiyaların tətbiqi sayəsində taxıl, buğda və yem bitkilərinin tədarükü daha da artacaq: "Əkin sahələrindən səmərəli istifadə olunsa, mütərəqqi suvarma üsullarından istifadə olunarsa, bütün aqrotexniki tədbirlər zamanında həyata keçirilərsə, gələcək illərdə ölkədə kənd təsərrüfatı istehsalını azı 2 dəfə artırmaq olar".

Nazir həmçinin vurğulayıb ki, ilkin proqnozlara görə 2013-cü ildə Azərbaycanda 2,7-2,8 milyon ton taxıl istehsal olunacağı gözlənilir.

**BƏXTİYAR**

# RİTN-də kollegiya iclası keçirilib

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) 2012-ci ilin 9 ayının yekunlarına dair kollegiya iclası keçirilib. Nazirlikdən verilən məlumata görə, kollegiya iclasını giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda nitqindən irəli gələn vəzifələr barədə danışıb, ölkə başçısının sərəncam və fərmanlarının, dövlət proqramlarının iqtisadiyyatın bütün sahələri, o cümlədən rabitə və informasiya texnologiyalarının inkişafı üçün geniş imkanlar yaratdığını bildirib, həmçinin, İKT sahəsində uğurla həyata keçirilən islahatlar, gələcək böyük layihələr və perspektivlərdən söz açıb. Bu sürətli inkişafda qeyri-neft sektorunun aparıcı sahəsi olan İKT-nin müstəsna yeri olduğunu qeyd edən nazir, sektora göstərilən hərtərəfli dövlət qayğısı sayəsində dinamik inkişafa nail olunduğunu, yola saldığımız 2012-ci ilin III rübündə bu sahədə müsbət nəticələr əldə olunduğunu vurğulayıb.

Kollegiya iclasında cari ilin 9 ayı ərzində rabitə və informasiya texnologiyaları sektorunda görülmüş işlər və əldə olunan nəticələr barədə məruzə dinlənilib. Çıxış edənlər bildirib ki, hesabat dövründə İKT, informasiya və poçt sektorunda əldə olunan gəlirlərin həcmi ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 18,2 faiz artaraq 1068,3 milyon təşkil edib, ötən illə müqayisədə artım tempi İKT sektorunda 17,8 faiz, o cümlədən telekommunikasiya sektorunda 19,2 faiz, İT sektorunda 3,8 faiz, poçt sektorunda 14,2, informasiya sektorunda isə 42,3 faiz təşkil edib. Respublika üzrə əhalinin hər 100 nəfərinə düşən telefon aparatlarının sayı 18,6 ədəd, kompüterlərin sayı 20 ədəd, internet istifadəçilərinin sayı 65, genişzolaqlı internet istifadəçilərinin sayı 30-dan artıqdır, həmçinin, hər 100 nəfərə düşən mobil abunəçilərin sayı isə 110-a bərabərdir.

Kollegiyaya yekun vuran Ə.Abbasov ümumilikdə elektron xidmətlərin həcminin genişləndirilməsi, genişzolaqlı internet xidmətlərinin ölkənin bütün ərazisində tətbiqinin qısa müddət ərzində başa çatdırılması, ilk telekommunikasiya peykinin orbitə buraxılması, rəqəmli TV yayımı ilə bağlı işlərin sürətləndirilməsi, informasiya təhlükəsizliyinin və digər mühüm əhəmiyyət kəsb edən məsələlərin icrası ilə bağlı tapşırıqlar verib.

Bundan əlavə, kollegiyada hər il ənənəvi olaraq keçirilən Bakutel informasiya- kommunikasiya texnologiyaları sərgi-konfransı və Bakıda ilk dəfə olaraq BMT-nin təşkilatçılığı ilə keçirilməsi nəzərdə tutulan İnternet İdarəçilik Forumuna hazırlıq işləri müzakirə olunub, hər iki beynəlxalq tədbirin yüksək səviyyədə təşkili üçün müvafiq göstəriş verilib.

**BƏXTİYAR**

# Şəkidə gənclər üçün treninqlər keçirilib

Şəki şəhərində İqtisadi İnkişaf Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinin Şəki nümayəndəliyinin təşkilatçılığı ilə gənclər üçün treninqlər təşkil edilib. Nazirlikdən verilən məlumata görə, "Öz biznes ideyanı yarat və öz biznesinə başla" mövzusunda keçirilən treninqlərdə Bakı Biznes Tədris Mərkəzinin Şəki nümayəndəliyinin, 19 saylı texniki peşə məktəbinin əməkdaşları, eləcə də texniki peşə məktəbində təhsil alan 25-dən çox gənc iştirak edib.

Treninqlərdə iştirakçılara biznes ideyanın yaradılması, biznes-planların tərtib edilməsi, SWOT təhlilin aparılması və bu sahədə beynəlxalq təcrübə, maliyyə planlarının hazırlanması və s. barədə ətraflı məlumat verilib.

Tədbirdə həmçinin, İİN tərəfindən göstərilən elektron xidmətlər, www.icazeler.gov.az, www.b2b.az elektron portalları və onlardan istifadə qaydaları, portalların biznesin səmərəli təşkili və inkişafı üçün yaratdığı əlverişli imkanlar və s. barədə məlumatlar da iştirakçıların diqqətinə çatdırılıb.

Treninqlər çərçivəsində sahibkarlara Bakı Biznes Tədris Mərkəzi tərəfindən hazırlanmış tədris-metodiki vəsaitlər paylanıb, onları maraqlandıran suallar cavablandırılıb.

**BƏXTİYAR**

# Sovet dövründə banklarda qalan əmanətlərə görə 420 mln. manat ödənilib

Keçmiş SSRİ Əmanət Bankının Azərbaycanın Respublikası Bankının əmanətçilərinə birdəfəlik ödəmələrin verilməsi prosesi nəticəsində 2012-ci il iyun ayının 1-dən noyabrın 1-dək əmanətçilərə ümumilikdə 419,573 mln. manatdan çox vəsait ödənilib. Bunu "Kapital Bank" ASC-nin Əmanətçilərə Birdəfəlik Ödəmələrin Verilməsi Mərkəzinin direktoru Araz Əliyev dünən keçirilən mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, 5 ay (iyun-oktyabr) müddətində "Kapital Bank"a fərdi birdəfəlik ödəmələrin verilməsi üçün əmanətçilərdən 1 151 037 müraciət daxil olub. Bu müddətdə Əmanətçilərə Birdəfəlik Ödəmələrin Verilməsi Mərkəzində 1 032 909 əmanətçiyə ümumilikdə 419,573 mln. manat vəsait ödənilib.

A.Əliyev bildirib ki, bundan başqa 57 502 müraciət üzrə ödənişlərin aparılmasına icazə verilib, sənədlərini təqdim etmiş həmin əmanətçilər fərdi birdəfəlik ödəməni götürmək üçün hələlik yerli xidmət məntəqələrinə müraciət etməyiblər: "Müxtəlif hüquqi səbəblərdən 36 368 müraciətin icrasından imtina edilib, 24 258 müraciətə isə hazırda baxılır".

Mərkəz direktoru qeyd edib ki, artıq oktyabr ayının 1-dən Bakıda məskunlaşmış məcburi köçkünlərin, vaxtı ilə əmanətlərini Naxçıvan Muxtar Respublikası ərazisindəki kassalarda yerləşdirmiş şəxslərin gediş-gəlişi problemini nəzərə alaraq onlardan müraciətlərin qəbulu üçün Bakı şəhəri, Xəqani küçəsi, 51 ünvanında yaradılmış yeni xidmət məntəqəsi fəaliyyət göstərir: "Bu bir ay ərzində məntəqəyə iki minə yaxın müraciət daxil olub. Bu müraciətlərin 1500-ü birbaşa Mərkəzə ötürülüb. Beş yüz nəfər əmanətçi əmanətini bu məntəqə vasitəsi ilə alıb".



**BƏXTİYAR**

# "Təmiz Şəhər" təhsil ocaqları ilə əməkdaşlıq edir

"Təmiz Şəhər" ASC ekoloji təhsilin və yeni sahə olan tullantıların düzgün şəkildə idarəolunmasını təbliğ etmək məqsədilə 2010-cu ildən etibarən Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) ilə əməkdaşlıq edir. ASC-dən verilən məlumata görə, bu əməkdaşlığın davamı olaraq oktyabr ayında ADNA-nın "Dağ-mədən mühəndisliyi" ixtisasında və "Tempus" proqramı çərçivəsində "Ətraf mühit və neft sənayesi" ixtisası üzrə təhsil alan tələbələrinə mühazirələr oxunub. "Təmiz Şəhər" ASC-nin Ətraf Mühitin Mühafizəsi şöbəsinin müdiri Sabit Zeyniyev tələbələrə tullantıların idarəolunması sahəsində ətraflı məlumat verib və onları maraqlandıran sualları cavablandırıb. Mühazirələr gənclər arasında böyük marağa səbəb olub və bu cür mühazirələrin davamlı olaraq keçirilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, 2012-ci ilin noyabr ayından Azərbaycan Diplomatik Akademiyasının "Yaşıl klubu" ilə birgə akademiyada, dekabr ayından etibarən isə Bakı Dövlət Universitetinin Ekologiya fakültəsində tələbələr üçün seminarlar keçiriləcək.

**BƏXTİYAR**

# Bakıda Bülbülün abidəsinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda, Bülbül prospektində görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün xatirəsinə ucaldılmış abidənin açılışında iştirak edib.

Azərbaycan musiqi ictimaiyyətinin tanınmış nümayəndələri, xaricdən gəlmiş qonaqlar və müğənninin ailə üzvləri dövlətimizin başçısını hərarətlə qarşıladılar. Prezident İlham Əliyev abidənin üzərindəki örtüyü götürüb.

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub və çıxış edib.

"Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Azərbaycan xalqının böyük oğlu Bülbülün abidəsinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan dövləti və Azərbaycan xalqı görkəmli şəxsiyyətlərinin xatirəsinə həmişə böyük hörmətlə yanaşmışdır. Görkəmli şəxsiyyətlərin xatirəsinə ucaldılmış abidələr bunun bariz nümunəsidir" İlham Əliyev çıxışında deyib.

Dövlət başçısı bildirib ki, Bülbül böyük şəxsiyyət, böyük sənətkar, Azərbaycan professional vokal sənətinin banisi idi.

"Onun ifasında səslənən xalq mahnıları, muğam, klassik opera partiyaları Azərbaycan musiqisinin qızıl fondunu təşkil edir. Əlli ildən çoxdur ki, Bülbül aramızda deyildir. Ancaq xalqımızın qəlbində ona olan sevgi bu gün də yaşayır. Bu sevgi onun istedadına olan məhəbbət, onun nə qədər böyük sənətkar olduğunu bir daha əyani şəkildə göstərir.

Bülbül əsl milli müğənni, milli xanəndə, milli sənətkar idi. Onda vətənpərvərlik ruhu çox yüksək səviyyədə idi. Bülbül, eyni zamanda, gözəl aktyor idi. Onun yaratdığı obrazlar bu gün də yaşayır və bir çoxları üçün Koroğlu obrazı məhz Bülbülün obrazı ilə eyniləşdirilir. Gənc nəsil, orta nəsil və yaşlı nəsil təbii ki, Koroğlu haqqında düşünəndə mütləq Bülbülün obrazı yada düşür. Koroğlu partiyasının ifası demək olar ki, onun opera ifaçısı kimi fəaliyyətinin zirvəsi idi.

Əlbəttə, Bülbülün yaradıcılığı haqqında bir vətəndaş, Azərbaycan xalq musiqisinə bağlı olan bir insan kimi mən öz fikirlərimi bu gün bölüşmək istəyirəm. Doğrudan da, onun təkrarolunmaz səsinin məlahəti unudulmazdır. Onun ifasında səslənən mahnılar ölməz mahnılardır. Artıq əlli il keçdi, bundan sonra da əlli il, yüz il keçəcək və Bülbülün sənəti, onun təkrarolunmaz səsi yaşayacaq və bizim hamımızı sevindirəcəkdir" Prezident qeyd edib.

İlham Əliyevin sözlərinə görə, Bülbül, eyni zamanda, böyük ictimai xadim, əsl Azərbaycan ziyalısı, öz xalqına, öz milli köklərinə bağlı və həmçinin dünyaya açıq insan idi.

"O, Azərbaycanın musiqi sənətini sovet məkanında və dünyada təbliğ edirdi. O illərdə xalqımızı dünyaya tanıtdırmaq üçün incəsənət, musiqi, ifaçılıq sənəti, ədəbiyyat yeganə bir vasitə idi. Çünki Azərbaycan müstəqil deyildi və Azərbaycan xalqı, Azərbaycan diyarı haqqında dünyada və sovet məkanında təsəvvürü məhz bizim görkəmli incəsənət xadimləri yaratmışlar. Bülbülün bu istiqamətdəki rolu çox böyük idi.



Bülbülün adı hamımız üçün əzizdir. Onun adı Azərbaycanda əbədiləşdirilib. Bu prospekt onun adını daşıyır. 1982-ci ildə Şuşada və 1983-cü illərdə Bakıda Bülbülün ev-muzeyləri yaradılmışdır. Onun adını daşıyan musiqi məktəbi uzun illərdir ki, fəaliyyət göstərir. 1997-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Bülbülün 100 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün xüsusi tədbirlər planı hazırlanmış və icra edilmişdir. O ildən başlayaraq bu günə qədər beynəlxalq Bülbül müsabiqəsi keçirilir və müsabiqənin iştirakçıları bu gün bizim qonaqlarımızdır.

2007-ci ildə artıq mənim Sərəncamımla Bülbülün 110 illik yubileyi münasibətilə dövlət tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir. Bu il Bülbülün 115 illik yubileyi qeyd olunur. Bu gün isə onun abidəsi şəhərimizin mərkəzində, onun yaşadığı evin yaxınlığında ucaldılıb. Bu, əlbəttə, Azərbaycan xalqının və dövlətinin onun xatirəsinə olan münasibətidir, eyni zamanda, bu, Azərbaycan mədəniyyətinə, görkəmli şəxsiyyətlərin xatirəsinə olan böyük ehtiramın əlamətidir" dövlət başçısı çıxışında deyib.

Prezident qeyd edib ki, Bülbül ölkəmizin gözəl diyarında — Qarabağda dünyaya gəlmişdir, Şuşada doğulmuşdur.

"Qarabağın gözəl təbiəti, havası, bulaqları, gözəl mənzərələri ona güc, ilham verirdi. Onun təkrarolunmaz səsi məhz Qarabağ diyarının sərvətlərindən, nemətlərindən qaynaqlanırdı.

Onun doğulduğu Şuşa şəhəri 20 ildən artıqdır ki, erməni işğalı altındadır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti törədilmişdir. Bu etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Bizə qarşı soyqırımı törədilmişdir. Xocalı soyqırımı ki, artıq dünyanın üç ölkəsi bunu soyqırımı kimi rəsmən tanımışdır və bu proses davam etdirilir.

Eyni zamanda, bizə qarşı mədəni soyqırımı törədilmişdir. Bizim dini, tarixi, mədəni abidələrimiz dağıdılmışdır. Onların içində Bülbülün, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin Şuşadakı büstləri erməni güllələri ilə deşik-deşik edilmişdir. O büstlər bu gün İncəsənət Muzeyində saxlanılır. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Bülbülün Şuşadakı evi yarıdağılmış vəziyyətdədir.

Yəni, bu, böyük faciədir, böyük dərddir. Ancaq mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü, öz suverenliyini bərpa edəcəkdir. Bunu deməyə əsas verən müxtəlif amillər vardır. İldən-ilə artan gücümüz, qüdrətimiz, beynəlxalq müstəvidə artan təsir imkanlarımız, beynəlxalq aləmin Azərbaycanın haqq işinə dəstək olması, beynəlxalq hüquq normalarının Azərbaycanın mövqeyini dəstəkləməsi və əlbəttə, bizim iqtisadi qüdrətimiz qələbə gününü yaxınlaşdırır. Mən əminəm ki, yaxın zamanlarda biz qələbə gününü qeyd edəcəyik.

Əlbəttə, bütün dünya ictimaiyyəti çalışır ki, məsələ sülh yolu ilə həll olunsun. Biz də bunun tərəfdarıyıq. Ancaq eyni zamanda, biz istənilən varianta da hazırıq. Heç vaxt imkan verməri ki, qədim Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın və mütləq ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ondan sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin abidələri yenə də Şuşada qoyulacaqdır. Əminəm ki, biz o abidələrin açılışında iştirak edəcəyik və Xankəndidə, Şuşada Azərbaycanın milli bayrağı qaldırılacaqdır.

Əziz dostlar, bu gözəl tarixi hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Bülbülün ailəsini, onun yaxınlarını, bütün musiqi ictimaiyyətini bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram" İlham Əliyev çıxışının sonunda deyib.

Qeyd edək ki, qeyri-adi dərəcədə məlahətli səsinə görə xalq tərəfindən Bülbül adı verilən görkəmli Azərbaycan musiqiçisinin abidəsinin müəllifi heykəltəraş Akif Əsgərovdur. Tuncdan hazırlanan abidənin Bakının mərkəzində, Bülbülün yaşadığı evin yaxınlığında ucaldılması xalqımızın milli-mənəvi dəyərlərinin qorunması istiqamətində atılan mühüm addımlardan biridir.

# Moskvada Mirzə Fətəlinin əsərlərindən ibarət kitab nəşr edilib




Böyük ədibimiz M.F.Axundzadənin əsərlərindən ibarət "İnsan əqli Allah vergisidir" adlı kitab Moskvada çapdan çıxıb. AMEA Əlyazmalar İnstitutundan aldığımız məlumata görə, sözügedən kitab dahi ədibin 200 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində ərsəyə gətirilib. Əlyazmalar İnstitutunun şöbə müdiri Fərid Ələkbərlinin bildirdiyinə görə, kitaba M.F. Axundzadənin seçilmiş əsərləri ilə yanaşı, ədibin məktubları da daxildir. Topludakı materiallar Azərbaycan və rus dillərindədir.

Onu da əlavə edək ki, Fərid Ələkbərli nəşrin tərtibçilərindən biridir. Digər tərtibçi isə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı İlya Zaytsevdir.

Kitabın hazırlanmasına Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi yaxından dəstək verib.

Nəşrin təqdimat mərasiminin Moskva Dövlət Universitetində keçirilməsi nəzərdə tutulub.

**Ceyhun ABASOV**

# Emin Sabitoğlunun 75 illiyi qeyd edilib

Azərbaycan Bəstəkarlar İttifaqının Üzeyir Hacıbəyli adına konsert salonunda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli professor Emin Sabitoğlunun 75 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilib.

Tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirak etdikləri tədbirdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə E.Sabitoğlunun həyat və yaradıcılığından, yüksək insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında dahi bəstəkar Qara Qarayevin sinfində təhsil almış E.Sabitoğlu bəstəkarlıq fəaliyyətinə peşəkar musiqiçi kimi başlayıb. Sonra təhsilini Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirib.

Musiqinin müxtəlif janrlarında bir çox dəyərli əsərlərin müəllifi olmuş Emin Sabitoğlu bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün əsərlər yazıb. O, 700-dən artıq mahnı, 9 musiqili komediya, 40-a yaxın filmə musiqi bəstələyib.

Tədbirdə qeyd olunub ki, bəstəkarın "Dərələr", "Bakı, sabahın xeyir", "Ağ çiçəyim", "Kəpənək", "Çiçək yağışı", "Uzaq yaşıl ada", "Dağlar", "İnsaf da yaxşı şeydir" mahnıları dillər əzbəri olub.

Mərasimdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar və digərləri çıxış edərək bəstəkarla bağlı xatirələrini bölüşüblər.

Tədbirdə Emin Sabitoğlunun həyat və yaradıcılığına aid sənədli film nümayiş etdirilib.

Xatirə gecəsində respublikanın tanınmış incəsənət ustalarının ifasında bəstəkarın "Dəniz", "Çox yorğunam, kapitan", "Dəniz deyir" romansları və mahnıları səsləndirilib.

**GÜNEL**

# Azərbaycan dialektologiyasına dəyərli bir töhfə

Dil millətin ən əsas milli dəyəri və onun milliliyini təmin edən vacib atributudur. Milli varlığımızı mədəni təməllərə bağlayan məhz ana dilimizdir. Ana dilimiz millətimizin təsdiqini və milli özünüdərkini müəyyənləşdirən əsas amillərdən biridir. Milli-mənəvi sərvətimizdən, mənəviyyatımızdan bəhs olunanda ilk növbədə ana dilimiz yada düşür. Bu dilin birbaşa xalqla bağlı olan, onu daha dərindən öyrənən müəyyən bir sahəsini göstərmək, fərqləndirmək, tədqiq etmək zəruridir. Bu barədə bəhs edərkən dilçilikdə məhz dialektologiyanın bu elmin fundamentini təşkil etdiyini və ya bunların bir-birindən ayrı mümkünsüzlüyünü vurğulamaq lazım gəlir. Beləliklə, Azərbaycan dilinin dialekt və şivələri bu günə qədər həm ümumi şəkildə, həm də ayrılıqda regionlar üzrə öyrənilmişdir. Hətta bəzən bir kəndin şivəsi belə araşdırma obyekti olmuşdur. Bu mənada Naxçıvan qrupu dialekt və şivələri dialektoloji araşdırma baxımından həmişə böyük maraq doğurmuşdur. Bu aktuallıqdan irəli gəlir ki, həmin regionun dil materialları daim öyrənilir və öyrənilməkdədir. Filologiya üzrə fəlsəfə doktoru Nuray Əliyevanın müəllifliyi ilə çapdan çıxan yeni tədqiqat əsəri də bu baxımdan Naxçıvan qrupu dialekt və şivələrini öyrənmək üçün mühüm mənbə ola bilər.

Bu günlərdə işıq üzü görən AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nuray Əliyevanın "Azərbaycan dilinin Şahbuz şivələri" adlı monoqrafiyası Naxçıvan Muxtar Respublikasında elan olunan "Milli dəyərlər ili"ndə dilçilik elminə layiqli bir töhfədir. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çap olunan bu monoqrafiyanın elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Nizami Xudiyev, rəyçisi AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevdir.

Monoqrafiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Müəllif zəngin məhəlli dil faktları ilə yanaşı son illərin nəşri olan 130-a yaxın elmi ədəbiyyatdan da istifadə etmişdir. Əsərdə Şahbuz şivələrinin fonetikası, morfologiyası və sinaksisi təsviri şəkildə, Azərbaycan və türk dillərinin dialekt və şivələri ilə müqayisəli planda tədqiq edilmişdir. Müəllif indiyə qədərki Azərbaycan dilçiliyində bu şivənin tədqiq olunma səviyyəsinə də öz mövqeyi və münasibətini bildirir. Şahbuz şivələrini Azərbaycan dilində olan müxtəlif dialektlərin fonunda, əsasən də Azərbaycan ədəbi dili sistemində yerinin və mövqeyinin müəyyənləşməsində elmi əhəmiyyətə malik arqumentlər irəli sürür, həmçinin oxşar və fərqli xüsusiyyətləri izaha cəlb edir.




Əsərin birinci fəslində Şahbuz şivələrinin fonetikası elmi cəhətdən araşdırılır. Burada müəllif Şahbuz şivələrinin fonetik xüsusiyyətlərinin araşdırılmasına köklü surətdə yanaşmışdır. Uzun illərin bəhrəsi olan bu tədqiqat işinin sanbalı onun əhatə etdiyi nümunələr və irəli sürülən müddəalarda özünü aydın şəkildə ifadə edir və gənc tədqiqatçının bu əsərinin elmi dəlillərə əsaslanmasına zəmin yaradır. Şahbuz rayonu ərazisindən böyük zəhmətlə toplanan dialektoloji materiallar elmi-tədqiqat əsərinə bir dilçilik mənbəyi kimi sanbal qatır və müəllifin düzgün təhlil və nəticə çıxarma imkanlarına istiqamət verir.

Birinci fəsildə müəllif Şahbuz şivələrində özünü göstərən olduqca maraqlı sait və samit səslərin variantlarından bəhs edərək təhlilə cəlb edir. Tədqiqatçı bu qənaəti ifadə edir ki, Şahbuz şivələrində saitlərin və samitlərin ədəbi dildən fərqli bir sıra variantları mövcuddur. Bu da şivənin özünəməxsusluğunu səciyyələndirir. Burada müəllif Şahbuz şivələrində özünü göstərib digər dialekt və şivələrdə az rast gələnən səslərlə bağlı faktlara daha çox üstünlük verir. Çox nadir görünən səslərlə bağlı müəllifin araşdırma və təhlilləri monoqrafiyanın üstünlüyünü artırır. Müəllif bu fəsil daxilində həmçinin Şahbuz şivələrində özünü göstərən fonetik hadisə və qanunları da tədqiqata cəlb edir, maraqlı fikir və mülahizələr irəli sürür.

Əsərin ikinci fəsli Şahbuz şivələrinin morfologiyasına həsr olunub. Müəllif maraqlı təhlillərlə Şahbuz şivələrinin morfologiyasında özünü göstərən şivə xüsusiyyətlərini təqdim edir. Bu kimi özünəməxsus cəhətlərlə təqdim olunan Şahbuz şivəsinin Azərbaycan dilinin digər dialekt və şivələrindən fərqli olduğu fikrini ortaya qoyur. Öz tədqiqatlarında müəllif şivədə mürəkkəb fellərin çox qədim bir formasını da təhlilə cəlb edir. Tədqiqatçı "qar qarrıyır, dən dənniyir, bağ bağlamaq, ot otdamaq" kimi felləri çox qədim dil faktları kimi ortaya çıxarır. Gənc tədqiqatçı köməkçi nitq hissələri ilə də bağlı Şahbuz şivələrində rast gəlinən maraqlı faktları təqdim və təhlil edir.

Əsərin elmi cəhətdən maraq doğuran fəsillərindən biri də onun Şahbuz şivələrinin sintaksisinə həsr olunan üçüncü fəslidir. Şahbuz şivəsinin maraqlı linqvistik təzahür formalarından olan sintaktik nümunələr müəllifin elmi təhlilləri ilə işıq üzü taparaq yeni elmi nəticələr müəyyənləşdirilir. Bu faktlar və nümunələr işığında Şahbuz şivəsinin özünəməxsus səciyyəvi linqvistik-dialektoloji xüsusiyyətləri təqdimini tapır. Şahbuz şivələrində sintaktik əlaqələrdə, təyini söz birləşmələrində, cümlə üzvlərinin sıralanmasında, sadə cümlənin müxtəlif növlərinin işlənməsində, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz və söz birləşmələrinin işlənməsində, mürəkkəb cümlələrdə özünü göstərən bir sıra ədəbi dildən fərqlənən sintaktik xüsusiyyətlər maraq doğuran təhlillərlə tədqiqat əsərinə sanbal qatır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının dialektoloji baxımdan zəngin bölgələrindən biri kimi Cənub qrupuna daxil olan Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri tədqiqat baxımından olduqca böyük maraq doğurur. Naxçıvanın dialekt və şivələri mənəvi bir xəzinədir. Məhz elə bu bölgənin belə zənginliyi və tükənməzliyi səbəbindən uzun illərdir ki, bu sahədə çox qiymətli, orijinal tədqiqatlar aparılır. Dialekt və şivələrin öyrənilməsi dil tarixinin, eləcə də xalqın milli-etnik mənşəyinin və onun etnoqrafiyasının tarixinin tədqiqi üçün mühüm əhəmiyyətə malikdir. Çünki bu və ya başqa dialektdə elə dil faktları vardır ki, onlar müasir dildə ya işlənmir, ya da tamam başqa məna daşıyır, uzun illərdən bəri işlənərək öz forma və məzmununu dəyişmişdir. Bu kimi dil faktları xalqın uzaq keçmişindən xəbər verir və dünəni ilə səsləşir. Ədəbi dilin zənginləşməsi üçün də dialekt leksikası zəngin material verir. Azərbaycan dilinin başqa dialekt və şivələri kimi Cənub qrupu şivələrinin leksikasını öyrənmək məhz yuxarıda dediklərimiz baxımından çox faydalıdır və onun tədqiqi vacibdir.

Beləliklə, Azərbaycan dilinin dialektologiyası fonunda Naxçıvan bölgəsinin Şahbuz şivələrinə həsr olunan bu monoqrafiya olduqca faydalı tədqiqat əsəridir. Bu kitabın Azərbaycan dilinin dialektologiyası, ədəbi dilimizin tarixi, lüğətçiliyimiz, şifahi söz sənətimiz, onomalogiya sahəsi üçün, bütünlükdə xalqımızın soykökü, etnoqrafiyası, tarixi, coğrafiyası üçün xüsusilə faydalı olacağı şübhəsizdir.

**Zülfiyyə İSMAYIL,**
**AMEA Naxçıvan Bölməsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru**

# Səmimi sözün hikməti

Əlli illik zəngin yaradıcılıq yolu keçmiş şair Əvəz Mahmud Lələdağ poeziyasının leytmotivi vətənə, el-obaya olan tükənməz məhəbbətdir. Onun şeir və poemalarında qürbətdə qalan yurd yerlərimiz ürək ağrısı ilə anılır. Əvəz Mahmud Lələdağ bir şair kimi ulu sözün səmimiyyətinə qəlbən inanır və bu səmimiyyətə böyük hörmətlə yanaşır. Sözün nazını böyük ustalıqla çəkən şair təkcə sözü yazmır, əksinə özünü sözə sevdirməyi bacarır. Məhz bu keyfiyyəti ilə başqalarından fərqlənməyi bacaran şairlərimizdəndir Əvəz Mahmud Lələdağ. Oxucunun qəlbini duyaraq, gözəl söz demək qabiliyyətinə məxsus olan şairdir. Yuxarıda qeyd etdiyimiz kimi, zəngin yaradıcılıq yolu keçmiş şairin bədii irsi çoxçeşidlidir. Onun böyük bir ilhamla qələmə aldığı şeirləri içərisində qoşma, gəraylı və təcnisləri xüsusilə diqqət çəkir. Şairin aşıq şeiri üslubunda qələmə aldığı bu janrlar yüksək poetikliyi və dilinin sadəliyi ilə oxucunu heyran edir. Hal- hazırda ömrünün müdriklik çağını yaşayan ustad-şair Əvəz Mahmud Lələdağın aşıq şeiri üslubunda yazdığı janrları içərisində ustadnamələri xüsusi çəkiyə malikdir. Ustadnamə ustad sözü, ağsaqqal öyüd- nəsihəti kimi qəbul edilir. Deməli, zaman- zaman ağsaqqal babalarımız və ağbirçək nənələrimiz öz müdrik kəlamları ilə gənclərə dəyərli öyüd-nəsihət vermiş və onların tərbiyəçisi olmuşlar. Öz tarixi mənbəyini müdrik xalq deyimlərindən- atalar sözü və məsəllərdən alan ustadnamələr günü bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Ustadnamənin başlıca xüsusiyyəti insana yüksək əxlaqi keyfiyyət və nəcib sifətləri aşılamaqdır. Şairin "Olmaz" rədifli ustadnaməsində oxuyuruq:

**Könül, bəmdə dayan, çəkmə çox zilə,**
**Zildən bəmə enənləri görmüşəm.**
**Atını oynatma belədən-belə,**
**Çərxi geri çönənləri görmüşəm.**

Ömrü boyu öz zəhmətilə yaşayan şair el malına göz tikməyi özünə əskiklik sayır. Min bir zəhmətlə qazandığı halal çörəyini isə əsl nemət bilir. Bir sözlə, halal anlayışı insanın cəmiyyətdə yüksək mövqeyinin və təmiz adının ifadəsi kimi düşünülməlidir. Mayası zəhmətlə yoğrulmayan təmənnalı niyyətlə dolanan adamlar isə şairin nəzərində həmişə tənqid obyektinə çevrilib. Deməli, haram anlayışı isə düzlüyün, doğruluğun, təmizliyin əksinə olaraq, əyriliklə qazanılan var- dövlətin məzmununu ifadə edir. Şair müasir gənclərimizi təmiz zəhmətlə qazanılan vara, təmiz ada çağırmağı özünə borc bilir.

İnsanın mənəvi yoxsulluğunu əks etdirən boşboğazlıq, sözün işlə, əməllə uyğunsuzluğu şairin ustadnamələrində haqlı olaraq tənqid olunur. Şairin fikrincə, insan gərək çox bilib az danışmağı bacarsın. Məclisdə adamları ağıllı və bilikli saysın. Təkcə öyrətməyə deyil, öyrənməyə də meyl etsin. Heç bir əsası olmadan özünə güvənən, lovğalıq eləyən adam hər zaman özünü pis vəziyyətə salır. Düşdüyü məclisdə danışığına məhəl qoymayıb, dildə çoxlu vədlər verən , ancaq işə gələndə, dediklərinin əksinə hərəkət edərək, elin gözündən düşər. Şair öz oxucularını bu cür insanlardan kənar durmağa çağırır:

**Yekə məclisində yekə danışma,**
**Dilin bəlasına, bala, düşərsən.**
**Özgənin oduyla yanma, alışma,**
**Bir gün olar, qalmaqala düşərsən.**

Əxlaq gözəlliyi və mənəvi ucalıq kimi qiymətləndirilən dostluq Azərbaycan poeziyasında geniş şəkildə tərənnüm edilən əsas mövzulardandır. Belə ki, insanların həyatda üz-üzə gəldiyi çətinlikləri aradan qaldırması üçün dostluq hər zaman güclü amil olub. Dostluq daha çox çətin anlarda, insanın sarsıntılı vaxtlarında sınanır. Möhkəm dostluq çətin günün dostluğudur. Məşhur xalq deyimində olduğu kimi "Dost yolunda boran olar, qar olar." Əsl dost, dost yolunda qarşılaşdığı hər bir çətinliyə sinə gərməyi bacarmalıdır. Öz sədaqəti ilə dostuna arxa və kömək olmalıdır. Necə deyərlər, əsl dostluqda xəyanətə yer yoxdur. Şair Əvəz Mahmud Lələdağın təbirincə desək;

**Dostsan əgər, dosta xəyanət etmə,**
**Xəyanət eyləsən el qınar səni.**

Müdrik şair öz oğlunun timsalında bugünkü cəmiyyətin üzvlərinə, xüsusən də, gənc nəslə üzünü tutaraq nəsihət edir ki, insanın sədaqəti və ləyaqəti onun mənəvi paklığı ilə əlaqədardır. Mənəvi cəhətdən pak olmayan insanda isə vəfa, sədaqət və ləyaqət ola bilməz. Şair insanın mənəvi- əxlaqi keyfiyyətlərinin üzə çıxmasında irsiyyətin rolunu yüksək qiymətləndirir:

**Dedim, oğul, bədəsilə calanma,**
**Onda vəfa olmaz, sədaqət olmaz.**
**Şöhrət sevən bir nəsilə calanma,**
**Şöhrətpərəstlərdə ləyaqət olmaz.**

Şair Əvəz Mahmud Lələdağın xalqımızın gələcəyi olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə alaraq, böyüməsinə öz müsbət təsirini göstərə bilən ustadnamələri onlarcadır. Söylədiyimiz fikirlərin təsdiqi kimi bir nümunəyə diqqət edək;

**Torpaq səcdəgahdır hər bir insana,**
**Torpaq həyat verir canlıya, cana,**
**Torpaqdır dünyada ən gözəl ana.**
**Torpağı müqəddəs sayasan gərək.**

Əvəz Mahmud Lələdağın ustadnamələrindəki dəyərli öyüd və nəsihətlər müasir gənclərimizin əsl vətənpərvər kimi formalaşmasında mühüm rol oynaya bilər.

**Balakişi İSKƏNDƏROV**
**Sumqayıt Dövlət Universitetinin əməkdaşı, folklorşünas**

# *Tuyqun Nadirov:* "Yunis Hüseynovu istefaya göndərmədik"

## "KAMRAN AĞAYEVİN "XƏZƏR LƏNKƏRAN"A QAYTARILMASI MÜMKÜNSÜZDÜR"

### "Xəzər Lənkəran" klubunun vitse-prezidenti Tuyqun Nadirovun Qol.Az saytına müsahibəsi

***— İlk öncə Yunis Hüseynovun "Xəzər Lənkəran" klubunun baş məşqçi postundan ayrılması məsələsinə aydınlıq gətirməyinizi istərdik.***

— Birinci dövrənin yekunlarıyla bağlı iclas keçirdik. Elə həmin toplantıda baş məşqçiylə qarşılıqlı şəkildə yollarımızı ayırmaq qərara alındı. Biz Yunis müəllimi istefaya göndərmədik. Nə də ki, o vəzifəsindən istefa vermədi. Yəni, qarşılıqlı şəkildə ortaq məxrəcə gəlindi ki, yollarımızı ayıraq. Yunis müəllimə də gələcək fəaliyyətində uğurlar arzulayırıq.

***— Yəni, Yunis Hüseynovun işindən narazı qaldınız?***

— Biz Yunis müəllimə komandadan çıx get demədik. Ancaq təbii ki, komandanın hazırki durumu, turnir cədvəlində tutduğu mövqe bizi qane etmədi. Çünki "Xəzər Lənkəran" hər zaman iddialı olub. Bütün bu nüansları nəzərə alaraq belə qərar qəbul etdik.

***— Yayılan xəbərlərə görə, Türkiyəyə səfər etməyiniz yeni baş məşqçinin seçimi ilə bağlıdır. Doğru məlumatdır?***

— Xeyr, Türkiyəyə getməyim şirkətin işləriylə bağlıdır. Hansısa bir məşqçiylə danışıqlar aparmağımızdan söhbət belə gedə bilməz. İkincisi də, bu qərar sırf olaraq klubun prezidentinin səlahiyyətlərinə aiddir. Komandaya kimin baş məşqçi gətiriləcəyinə məhz prezident qərar verəcək.

***— Mətbuatda "Xəzər Lənkəran"ın baş məşqçi postuna "Kasımpaşa"dan ayrılan Mətin Diyadinin gətiriləcəyi haqda xəbərlər yazılır. Bu barədə nə deyərdiniz?***

— Mən sizə deyim ki, bugünə qədər mətbuatda "Xəzər Lənkəran"ın baş məşqçi postuna kimin gətiriləcəyi ilə bağlı yazılan yazıların heç biri həqiqəti əks etdirməyib. Sadəcə, kimsə nəyisə fikirləşərək belə qərara gəlir. Müxtəlif adlar çəkilir və müəyyən mütəxəssislərin gətiriləcəyi yazılır. Əlbəttə ki, müəyyən mütəxəssislərin siyahısı hazırlanır. Ancaq növbəti oyunda komandanı meydana Emin Quliyev və Erik Roketa çıxaracaq. Yalnız fasilə ərəfəsində baş məşqçi məsələsinə baxılacaq.

***— Bu dəfə hansı məşqçiyə üstünlük verəcəksiniz? Yerli, yoxsa əcnəbi?***

— Bu barədə sizə heç bir dəqiq məlumat söyləyə bilmərəm. Lakin bu dəfə komandaya uğur qazandıracaq, çempion edə biləcək bir mütəxəssis olmalıdır. Lakin son qərarı klub prezidenti verəcək.

***— Bir çoxları, eyni zamanda "Xəzər Lənkəran" azarkeşləri bu posta Mirça Rednikin yenidən gətiriləcəyinə ümid edirlər. Bu mümkündürmü?***

— Belə götürəndə, Mirça Redniklə klub rəhbərliyi olaraq heç bir problemimiz olmayıb. Yenə deyirəm ki, hər şey mümkündür. Mən əvvəlki müsahibələrimdə də demişəm ki, "Xəzər Lənkəran"da işləyən məşqçilərin yenidən baş məşqçi postuna gətirilməsi istisna deyil. Buna misal olaraq, Ağasəlim Mircavadov, Nazim Süleymanov, Rasim Kara işləmək üçün yenidən kluba qaytarılıb. Ola bilər bir il və ya beş ildən sonra Rednik yenidən Lənkərana gətirilsin. Ancaq bu gün Rednik məsələsi bir az çətin görünür. Çünki hazırda o Belçikanın "Standart" klubunun baş məşqçisidir. Onun müəyyən müddətlik klubla müqaviləsi var. Ona görə də, onunla bu haqda heç söhbət etməyə dəyməz.



***— Kamran Ağayevin məsələsi necə oldu?***

— Rəhbərlik olaraq AFFA prezidenti Rövnəq Abdullayevin xahişiylə Kamran Ağayevi komandaya qaytardıq. Lakin sonradan Kamran klubun düşərgəsini müxtəlif bəhanələrlə icazəsiz tərk etdi. Fikrimcə, Kamranın komandanın düşərgəsini icazəsiz tərk etməsi üçün bu bəhanələrin heç birisi yetərli deyildi. Kamran ən azından fikirləşməliydi ki, onun komandaya qaytarılmasını kimlər xahiş edib. Hər halda bunlara hörmətlə yanaşmalıydı. İndi isə qərar onundur.

***— Kamranın geri qaytarılması mümkündürmü?***

— Təbii ki, bu olaydan sonra onun komandaya qaytarılması mümkünsüzdür. Sadəcə, onun hansısa bir komandaya keçidindən söhbət gedə bilər. Bəzən mətbuatda Kamranın transferinə astronomik məbləğin qoyulması ilə bağlı xəbərlər yer alırdı. Lakin bu heç də belə deyil. Kamranın transfer məbləği Azərbaycanda aparıcı klublarda çıxış edən yerli futbolçuların qiymətinin əlli faizidir. Əgər müqavilə əsasında Kamran Ağayev kluba məxsusdursa, bizim də müəyyən öhdəliklərimiz var ki, onu yerinə yetirməliyik. Bu öhdəliklər FİFA-nın reqlamentində də öz əksini tapıb. Futbolçunu məşq prosesiylə təmin etmək və digər vəzifələri yerinə yetirmək. Əgər biz bunları yerinə yetirməsək, Kamran azad agent futbolçu statusu alardı. Biz də onu əvəzedici komandaya məşqlərini davam etdirmək üçün dəvət etdik. Ancaq o elə həmin vaxt bu təklifdən imtina etmişdi.

***— Qış transfer pəncərəsi dönəmində komandaya yeni qapıçı gətiriləcəkmi?***

— Məncə, komandada qapıçı baxımından heç bir problem yoxdur. Orxan Sadıqlı artıq öz oyunuyla bunu sübut edib. Bir çoxları bu günə kimi "Xəzər Lənkəran"ın ünvanına əsassız olaraq ittihamlar səsləndirib. Guya klub olaraq biz indiyənə qədər heç bir futbolçu yetişdirməmişik. Lakin hazırda Orxan Sadıqlının inamlı çıxışı onun Azərbaycanın ən perspektivli qapıçılarından olmasına, bir çox iddialı klublarla oyunda möhtəşəm seyvləri və milli komandanın heyətinə dəvət alması buna sübutdur.

**Əli HƏYATİ**

## Berti Foqts milliyə 26 futbolçu çağırdı

"DÇ-2014"ün seçmə mərhələsi çərçivəsində noyabrın 14-də keçiriləcək Şimali İrlandiya — Azərbaycan oyununa hazırlıq məqsədilə Azərbaycan milli komandasının noyabrın 6-dan 9-a qədər Bakıda, noyabrın 10-dan 15-dək isə Belfast şəhərində təlim-məşq toplanışı keçiriləcək.

AFFA-nın rəsmi saytının verdiyi məlumata görə, Berti Fotqs qarşıdakı təlim-məşq toplanışı üçün 26 futbolçuya dəvət göndərib.

Anar Nəzirov — "Qəbələ"
Səlahət Ağayev — "Sumqayıt"
Andriy Popoviç — "Turan"
Volodimir Levin — "İnter"
Bədavi Hüseynov — "Qarabağ"
Maksim Medvedev — "Qarabağ"
Əli Gökdemir — "Hannover 96" (Almaniya)
Hacı Əhmədov — "Qarabağ"
Aqil Nəbiyev — AZAL
Ruslan Abışov — "Xəzər Lənkəran"
Elhad Nəziri — "Milsami" (Moldova)
Murad Ağayev — "Sumqayıt"
Rasim Ramaldanov — "Simurq"
Aleksandr Çertoqanov — "Qəbələ"
Rəşad Sadiqov — "Neftçi"
Rahid Əmirquliyev — "Xəzər Lənkəran"
Mahir Şükürov — "Neftçi"
Cavid Hüseynov — "Adanademirspor" (Türkiyə)
Elvin Məmmədov — "Bakı"
Rizvan Umarov — "Elçe" (İspaniya)
Uğur Pamuk — "Sumqayıt"
Branimir Subaşiç — "Xəzər Lənkəran"
Vüqar Nadirov — "Qarabağ"
Vaqif Cavadov — "Qarabağ"
Rauf Əliyev — "Qarabağ"
Cihan Özkara — "Kayserispor Erciyesspor" (Türkiyə)

Qeyd edək ki, Mahir Şükürov və Rəşad Sadiqov noyabrın 9-da, Əli Gökdəmir və Cihan Özkara isə noyabrın 12-də millinin heyətinə qoşulacaqlar.

## *Anar Nəzirov:* "Qəbələ" layiq olduğu yerdə deyil"

### "Qəbələ" klubunun qapıçısı Anar Nəzirovun Qol.Az saytına müsahibəsi.



***— Premyer Liqanın XI turu çərçivəsində "Qarabağ" üzərində qələbə qazandınız. Matç barədə fikirlərini bilmək istərdik...***

— Hər iki komanda üçün üç xal çox vacib idi. Ancaq turnir cədvəlinin sonuncu pillələrində qərarlaşdığımız üçün mütləq qalib gəlməliydik. Ona görə də meydanda var gücümüzlə çalışırdıq. Rəqiblə oyunumuz çox çətin keçdi. Baxmayaraq ki, ilk hisssədə qollar vuraraq hesabda irəli keçsək də, sonradan rəqib üstünlüyü ələ aldı. Hər şeyə rəğmən istəyimizə çatdıq.

***— "Turan"la uğursuz nəticədən sonra qələbə qazanacağınıza inanırdınız?***

— Düzdür, son turdakı nəticəyə görə çox pis olmuşduq. Sonradan özümüzü toparlayaraq qələbə qazanacağımıza söz verdik. Çünki "Qəbələ" layiq olduğu yerdə deyil. Baxmayaraq ki, iddialı klublarla qarşılaşmalarda yaxşı təsir bağışlamışdıq. Lakin qələbə qazana bilmirdik. İçimizdə qalib gələcəyimizə inam vardı. Ancaq o qədər inamlı şəkildə meydana çıxıb, məğlub olmuşduq ki. Yəni, futbolda qələbə qazanacağını dəqiq bilmək mümkün deyil. İstənilən halda hər şey komandamız üçün yaxşı qurtardı. Bir daha əmin olduq ki, meydanda sona qədər mübarizə aparmaq lazımdır.

***— İlk yarının 32 və 34-cü dəqiqələrində qollar vuraraq irəli çıxdınız. Sonradan nə baş verdi ki, oyununuzda sönüklük yarandı. Hətta qapınızda qol da gördünüz?***

— Hesabda irəli olduqdan sonra tempi bir qədər aşağı saldıq. Bilirdik ki, ikinci yarıda hesabda geri olan rəqib təzyiqi artıracaq. Ona görə də, əks-hücum taktikasına üstünlük verdik. Ancaq deməzdim ki, bu uzun sürdü. Hardasa 15 dəqiqə rəqibin təzyiqiylə üzləşdik. Sonradan öz oyunumuzu yenidən bərpa etdik. Rəqibə oynamaq üçün imkan yaratmadıq.

***— Belə çıxır ki, tempi aşağı salmaq baş məşqçinin tapşırığı deyildi?***

— Əslində baş məşqçimiz bizi hər zaman hücum futbolu oynamağa səsləyir. Sadəcə, oyun ərzində belə alındı. Çünki rəqib təzyiqi çox artırmışdı. Şükürlər olsun ki, öhdəsindən gələ bildik. Hesab necə olursaolsun, əsas məsələ nəticə bizi qane etsin.

***— Necə düşünürsən, qapınıza vurulan qolda sənin səhvin vardımı?***

— Açığını deyim ki, mən heç topu görmədim. Rəqib futbolçu topu komanda yoldaşımın ayaqları arasından qapıya doğru vurdu. Həmin anda topu ayaq və eyni zamanda əlimlə çıxartmaq istəyirdim. Bax bu iki fikir arasında qalmağım səhv etməyimə səbəb oldu. Tam olaraq fikrimi cəmləyə bilmədim. Heç gözləmirdim ki, rəqib futbolçu topu müdafiəçimizin ayaqları arasından qapıya vursun. Sözün düzü, mən bu topu çıxartmağa borclu idim.

**Əli HƏYATİ**

**Materialları Anar Cəfərsoy hazırladı**

# Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr Dünya Azərbaycanlıların Həmrəylik Günü və Yeni il münasibəti ilə keçiriləcək fərdi jurnalist yazılarının müsabiqəsinin

## ELANI

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə jurnalist yazılarının müsabiqəsini elan edir:

| İstiqamətin adı | Mövzular |
|---|---|
| Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu | 1) İnsan hüquqlarının təminatı və məhkəmə-hüquq islahatları<br>2) Demokratiya və vətəndaş cəmiyyətinin inkişafı<br>3) Vətəndaş cəmiyyətinin inkişafında QHT-lərin rolu |
| Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi | 1)Azərbaycanda mətbuatın inkişafı və söz azadlığının təmin edilməsi<br>2) Milli mətbuatın inkişafı müasir şəraitdə<br>3) Söz azadlığının inkişafı yolunda son 20 ilin Azərbaycan təcrübəsi |
| İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması | 1) Müstəqil dövlətçilik və Azərbaycan cəmiyyətinin inkişafı<br>2) Əlil və fiziki qüsurları olan şəxslərin hüquqlarının qorunması<br>3) Siyasi mədəniyyətin və ictimai fəallığın gücləndirilməsində KİV-in rolu |
| İctimai və dövlət maraqlarının müdafiəsi | 1) Vətəndaş və dövlət mənafelərinin uyğunluğu sabitliyin təməl şərti kimi<br>2) Dövlətçiliyimizin qorunması hər kəsin vətəndaşlıq borcudur<br>3) Milli birlik və həmrəylik ideyaları bizi birləşdirən əsas dəyərlərdir |
| Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi | 1) Dünyanın gözündə Qarabağ: işğalçını öz adıyla çağırmalı!<br>2) Qarabağ üçün ədalət harayı beynəlxalq təbliğat məkanında<br>3) İşğal edilmiş ərazilərdə erməni vandalizmi |
| Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi | 1) Azərbaycan – regionda və dünyada mühüm söz sahibinə çevrilir<br>2) Beynəlxalq qurumlarla əməkdaşlıq: keçilən yol və perspektivlər<br>3) Mədəniyyətlərarası dialoqun təşkilində Azərbaycan nümunəsi |
| Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması | 1) Qaçqın və məcburi köçkünlər dövlətin diqqət mərkəzində<br>2) Sosial qayğı mühiti: heç kəs kənarda qalmır<br>3) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycana dəymiş ziyanlar |
| Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin və mədəniyyətinin təbliği | 1) Milli ənənələr və mədəni irsin öyrənilməsi təbliği yeni mərhələdə<br>2) Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan<br>3) Müasir dövrdə yas və toy mərasimləri |
| Azərbaycançılıq ideyasının təbliği | 1) Hamımızın bir Vətəni var – Azərbaycan!<br>2) Fəxr edirəm ki, mən Azərbaycanlıyam!<br>3) Azərbaycançılıq – bizi birləşdirən dəyər |
| Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi | 1) Sosial-iqtisadi inkişafın yeni xətləri: paytaxtdan bölgələrə doğru!<br>2) Regionların inkişafı Azərbaycanın tərəqqisi deməkdir<br>3)Regional inkişaf proqramları çərçivəsində məşğulluğun artırılması və yoxsulluğun azaldılması |
| İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi | 1)Yeni texnologiyalar yeni reallıqlar diqtə edir<br>2)Medianın inkişafında İKT-nin rolu<br>3)Qloballaşma dövründə informasiyanın rolu |
| Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi | 1) Dünyanın hər yerində Azərbaycan naminə!<br>2) Erməni lobbiçiliyinə qarşı mübarizədə diasporanın rolu<br>3) Milli həmrəylik siyasəti: bizi birləşdirən dəyər |
| Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilmə | 1) Azərbaycan - nümunəvi dini tolerantlıq məkanı<br>2) Fərqli milli dəyərlər ortaq mənəvi sərvət kimi<br>3) Azərbaycan şərq və qərb arasında körpüdür |
| Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması | 1) Ailə ənənələri müasir qloballaşma müstəvisində<br>2) Azərbaycanda gender balansı medianın gözü ilə<br>3) Ailə şəxsiyyəti və cəmiyyəti formalaşdıran mühüm sosial institutdur |
| Uşaq və gənclərin fiziki və mənəvi inkişafı | 1) Yeni nəsil üçün inkişaf modeli: fiziki tərbiyə ilə mənəvi kamillik vəhdətdə<br>2) İdman ilinin uğurları<br>3) Bayrağımızı ucaldan gəncliyimmiz |

### Müsabiqədə iştirak:

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi nformasiya vasitələrində fasiləsiz işləyən şəxslər müsabiqədə iştirak edə bilərlər.

### Müsabiqəyə təqdim olunan yazılara aid tələblər

**Müsabiqəyə təqdim olunan yazılara aid tələblər**

1.Yazı Fond tərəfindən elan edilmiş mövzulardan birinə uyğun olmalıdır.

2. Dərc olunmuş yazıların sərlövhələri təklif olunmuş mövzu ilə eyni olmalıdır.

2.Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.

3.Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.

4. Yazı Azərbaycan dilində dərc olunmalıdır (xarici dildə nəşr olunan mətbuat orqanlarında dərc edilmiş yazılar Azərbaycan dilinə tərcümə olunmuş şəkildə Fonda təqdim edilməlidir).

5. Yazıda **"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**nun keçirdiyi müsabiqəyə təqdim etmək üçün" qeydi göstərilməlidir.

**QEYD: İnformasiya agentliklərində və Region mətbuatında çalışan jurnalistlər isitisna olmaqla,** digərjurnalistlər öz yazılarını yalnız işlədiyi mətbuat orqanlarında dərc etməlidirlər.

### Tələb olunan sənədlər

1. Əmək kitabçasının işlədiyi KİV tərəfindən təsdiq edilmiş surəti
2. Şəxsi VÖEN və surəti
3. Şəxsi bank rekvizitləri
4. Şəxsiyyət vəsiqəsi və surəti

**Tələb olunan sənədlər tam olmadığı və ya həqiqəti əks etdirmədiyi hallarda yazı müsabiqəyə buraxılmır.**

### Müsabiqəyə təqdim olunmuş yazıların qiymətləndirmə meyarları:

**— Mövzuların əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;**

**—Materialın oxucu üçün informasiyalılıq səviyyəsi;**

**—Yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;**

**—Jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;**

**— İctimai maraqların müdafiəsi.**

Hər mövzu üzrə 3 qalib müəyyən edilir; 2 qalib yeri respublika ərazisində yayılan qəzetlərin jurnalistləri, 1 qalib yeri isə region mətbuatında çalışan jurnalistlər üçün nəzərdə tutulub.

Hər mövzu üzrə maksimum 50 bal müəyyən olunur. 25-dan aşağı bal toplayan iştirakçı qalib ola bilməz.

Qaliblər Fondun xüsusi diplomu və 1000 (bir min) manat məbləğində pul mükafatı ilə təltif olunacaqlar.

**Yazılar A3 formatda 1 səhifədən ( 9-11 min işarə) çox olmamalıdır.**

**Yazının dərc olunduğu mətbuat orqanı (1 nüsxə),**

**A4 formatda çap; müəllifin imzası olmamalıdır (3 nüsxə)**

**Elektron variant (Times New Roman 12 şriftində, diskdə) Fonda təqdim olunmalıdır.**

**Təqdim olunan yazılar və sənədlər geri qaytarılmır.**

**Yazılar və sənədlərin qəbulu 11 oktyabr 2012-ci il tarixində başlayır və 11 dekabr 2012-ci il tarixində başa çatır. Sənədlər rəsmi iş günləri saat 10.00-dan 16.00-dək Fonda şəxsən təqdim olunmalıdır.**

### İştirakçı haqqında məlumat

| | | |
|---|---|---|
| | Yazının aid olunduğu istiqamət | |
| | Adı, soyadı, atasının adı | |
| | Mətbuatda təxəllüsü (əgər varsa) | |
| | Ünvanı və poçt indeksi | |
| | - iş telefonu | |
| | - ev telefonu | |
| | - mobil telefonu | |
| | - elektron poçt ünvanı | |

**(müəllif tərəfindən doldurulur):**

**Şəxsin imzası** ____________________

**Sənədlərin təqdim olunma tarixi: "____"__________ 2012-ci il**

**Əlavə məlumat üçün Fondun ofisinə müraciət edə bilərsiniz:**

**Ünvan: Bakı şəhəri, Mətbuat pr., 529 m**
**Telefon: 537-19-41, 537-19-45.**
**www.kivdf.gov.az**

**TƏCİLİ**
Şəhərin mərkəzində obyekt-restoran satılır. Özüm satıram.
**Tel: 0557025536**

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:3667
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.